# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

19 MART 2019-cu il

№ 52 (3950)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# İRƏVANIN İRANLA GÜRCÜSTAN ARASINDA QAZ TRANZIT MƏNTƏQƏSİNƏ ÇEVRİLMƏK PLANI TAM İFLASA UĞRADI

■ səh. 8 ■


Avroittifaq İlham Əliyevin əfv sərəncamını hansı məqamlarına görə təqdir etdi... ■ səh. 3 ■

Sosial şəbəkə radikalları rayon əhalisinin Prezidentə əlbəəl təqdim etdiyi məktubların məzmununu qaralamaq yolu tutub... ■ səh. 4 ■

Erməni vəhşiliyinin yeni təzahürü - psixi xəstə azərbaycanlını da yaraladılar ■ səh. 5 ■

Erməni işğalında qalan muzeylərimiz... ■ səh. 10 ■

"AZ-GRANATA" Nəsiminin klassik qəzəlinin sözlərini necə bərbad günə saldı... ■ səh. 13 ■

Ağdərədə qəhrəmancasına həlak olmuş Daxili Qoşun əsgərlərimizə Bakıda "Qardaşlıq abidəsi" qoyuldu... ■ səh. 12 ■

Yanvar-fevral aylarında əhalinin gəlirləri 5 faiz artıb - prosesin səbəbləri... ■ səh. 14 ■





## Bakı iclası OPEC-in dünya neft proseslərinə təsirində yeni mərhələ açacaq...

■ səh. 7 ■






Azərbaycan Ermənistanın «format pozuculuğunu» ifşa edən növbəti şansı məharətlə reallaşdırdı ■ səh. 9 ■

Naxçıvan xanlarına «İrəvana xəyanət etdiniz» ittihamı - teleaparıcı Elçin Əlibəyliyə etiraz var... ■ səh. 11 ■

Adını siyasi məhbus qoyub istifadə etdilər, o isə çıxan kimi müxalifət liderlərinə «diktatorlar» dedi... ■ səh. 6 ■

■ səh. 2 ■ Əli Həsənov: "Azərbaycan dövlətinin KİV-lərə, jurnalistlərə dəstəyi şəffaf şəkildə həyata keçirilir, bu prosesdə heç bir qaranlıq məqam yoxdur"





■ səh. 3 ■ Sonuncu əfvin Azərbaycanda vətəndaş həmrəyliyinə təsir gücü...





■ səh. 6 ■ Hakimiyyət-müxalifət dialoqu mövzusu yenidən aktuallaşmağa başlayıb - perspektiv və ehtiyac varmı...





■ səh. 7 ■ OPEC+ formatı daha səmərəli olmağa başlayır - Azərbaycanın təşəbbüsləri həlledicidir...





■ səh. 15 ■ Uşaqların övladlığa verilməsi qanununda hansı dəyişikliklər olacaq...






## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye nazirini qəbul etdi

**Prezident İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul edib.**

Süheyl Məhəmməd əl-Məzrui Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyanın salamlarını dövlət başçısına çatdırıb.

Dövlət başçısı Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək, əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu ifadə edib. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını bildirən Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirib və qonaqların xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu vurğulayıb.

Söhbət zamanı "OPEC plus" formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunularaq, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarına görə minnətdarlığını bildirən dövlət başçısı onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, vitse-prezidenti, Baş naziri və Dubay Əmirinə və Əbu-Dabinin vəliəhdinə çatdırmağı xahiş edib.



## KİVDF Novruz bayramı münasibətilə jurnalist yazı müsabiqəsinin nəticələrini açıqladı

**Martın 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. KİVDF-dən "Bakı-Xəbər"ə verilən məlumata görə, iclasda Fondun yaranmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə keçirilmiş ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri müzakirə edilib.**

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdə olan məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor Fondun yaranmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə elan edilmiş müsabiqənin 2019-ci il fevralın 1-dən martın 15-dək davam etdiyini bildirib. Vüqar Səfərli Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirilən müsabiqəyə 54 KİV-dən 145 yazının təqdim olunduğunu, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini diqqətə çatdırıb. Sonra müsabiqənin ekspertlərin rəyləri əsasında hazırlanmış yekun nəticələri iclasın müzakirəsinə təqdim edilib. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Əvəz Rüstəmov və Rasim Həsənov Fondun keçirdiyi müsabiqələrin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyin stimullaşdırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd edib. Müzakirələrin yekununda müsabiqənin şərtlərinə uyğun olaraq istiqamətlərin hər biri üzrə qaliblər elan edilib, ümumilikdə 109 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

# Prezident Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi, 20 Yanvar və Çernobıl hadisələri zamanı əlil olanları da unutmadı

## ...avtomobillə təmin olunacaqlar

**Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5 milyon manat ayrılır.

Maliyyə Nazirliyi maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Əli Həsənov: "Azərbaycan dövlətinin KİV-lərə, jurnalistlərə dəstəyi şəffaf şəkildə həyata keçirilir, bu prosesdə heç bir qaranlıq məqam yoxdur"





**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaranmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə elan olunmuş ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Trend-in məlumatına görə, tədbirdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, dövlət rəsmiləri, millət vəkilləri, KİV rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Azərbaycan Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirin əvvəlində fondun 10 illiyinə həsr olunan film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Ə.Həsənov bildirib ki, KİVDF Azərbaycanda kütləvi informasiya vasitələrinin və jurnalistikanın inkişafında önəmli rol oynayıb: "Fond Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş azad media siyasətinin həyata keçirilməsində önəmli xidmətlər göstərib. Bu fondun yaradılması təşəbbüsünü Prezident İlham Əliyev irəli sürüb. 10 il bundan qabaq fondun yaradılması ilə bağlı Prezidentin sərəncamı imzalandı. Ondan bir il qabaq Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası qəbul olundu. Həm konsepsiyanın qəbul edilməsi, həm də fondun yaradılması Azərbaycanda dövlətin mediaya qayğısını, dəstəyini sistemləşdirən və vahid konsepsiya ilə həyata keçirən bir mexanizmin yaradılmasını ehtiva edirdi".

PA rəsmisi bildirib ki, 10 ildir Azərbaycan dövlətinin KİV-lərə, jurnalistlərə, onların şəxsi və xidməti ehtiyaclarına, o cümlədən KİV-lərin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasına, jurnalistlərin sosial problemlərinin həll edilməsinə göstərdiyi dəstək şəffaf şəkildə həyata keçirilir və bu prosesdə heç bir qaranlıq məqam yoxdur:

"Bu 10 il müddətində kütləvi informasiya vasitələrinə, jurnalistlərə nə edilibsə, kollegial şəkildə edilib, KİVDF-nin Müşahidə Şurasının bilavasitə nəzarəti ilə həyata keçirilib. İstər mənzillərin paylanması, istər fərdi yazı müsabiqələrinin keçirilməsi, müsabiqələrdə qaliblərin elan olunması, istərsə də kütləvi informasiya vasitələrinə tirajına və onların potensialına uyğun illik yardımların paylanması tam şəffaf və ədalətli sistem üzrə həyata keçirilib. Prezident İlham Əliyevə Azərbaycan jurnalistlərinin bugünkü məmnunluq nümayiş etdirən münasibəti də ona gətirib çıxarıb ki, neçə ildir davamlı olaraq jurnalistlər İlham Əliyevi özünün dostu seçir. Mən Azərbaycan mediasına göstərdiyi sistemli və şəffaf dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Prezident İlham Əliyevin bu siyasətinin həyata keçirilməsində iştirak edən hər kəsə, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təşəkkür edirəm".

Daha sonra tədbirdə çıxış edən V.Səfərli bildirib ki, 10 il ərzində Fond tərəfindən bir çox layihələr həyata keçirilib:

"İstər yerli icra hakimiyyətləri, istərsə də mərkəzi icra orqanları və digər qurumlarla birgə bir çox layihələr həyata keçirmişik. 10 ildə çox işlər görülüb, jurnalistlərin peşəkarlığının artırılması, sosial-mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Fond ildə 3 dəfə - Novruz bayramında, Milli mətbuatın yaranma günündə və Dünya Azərbaycanlılarının Həmrəyliyi və Yeni il münasibətilə müsabiqə keçirir".

V.Səfərli Azərbaycan mətbuatına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə mətbuat adından minnətdarlığını bildirib, eyni zamanda, Prezident İlham Əliyevi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı Novruz bayramı münasibətilə təbrik edib.

Daha sonra mükafatlar təqdim edilib və tədbir bədii hissə ilə davam etdirilib.

# Avroittifaq İlham Əliyevin əfv sərəncamını hansı məqamlarına görə təqdir etdi...

**Avropa İttifaqı (Aİ) Azərbaycan Prezidenti İlham Əliyevin Novruz bayramı ilə əlaqədar aralarında siyasi partiya, qeyri-hökumət təşkilatları üzvləri, bloger və jurnalistlərin də olduğu 400-dən çox məhbusu əfv etməsini alqışlayıb.**

***Aydın Mirzəzadə:*** *"Avropa İttifaqı aydın şəkildə görür ki, bu sərəncamda insanlara siyasi mənsubiyyətinə görə heç bir fərq qoyulmayıb"*

***Rauf Zeyni:*** *"Bu, insan haqlarına verilən ən böyük dəyər olduğu üçün, Aİ əfv qərarını birmənalı olaraq alqışlayıb"*

Bu barədə Aİ-nin Xarici əlaqələr və təhlükəsizlik siyasəti ofisinin mətbuat katibinin bəyanatında deyilir.

Bildirilir ki, Aİ Azərbaycanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərə uyğun olaraq gələcəkdə də oxşar addımları davam etdirəcəyini gözləyir: "Aİ əməkdaşlığı, eyni zamanda, əlaqələrimizin vacib elementlərindən olan insan haqları sahəsində əlaqələri inkişaf etdirmək üçün Azərbaycanla işləməyə davam edəcək".

Avropa İttifaqı Azərbaycanda imzalanan son əfv sərəncamını dəstəkləməklə əsasən hansı aspektlərə önəm verib?

**Millət vəkili Aydın Mirzəzadə qəzetimizə bildirdi ki, cənab Prezidentin imzaladığı əfv sərəncamına yalnız həmin qurumdan deyil, bir çox dairələrdən müsbət reaksiya verilib:** "Bilirsiniz ki, Azərbaycan dövləti mütəmadi şəkildə əfv sərəncamları verir, amnistiya aktları tətbiq edir. Müqayisə aparsaq görərik ki, bu statistikaya görə, biz bir çox ölkələri qabaqlayırıq. Bu, dövlətin humanistliyini və səhv etmiş vətəndaşlarını bağışlamaq qüdrətində olduğunu göstərir. Belə addımların atılması, bir qayda olaraq, demokratik, hüquqi dövlətlər, yəni insan haqlarına ciddi hörmət edən ölkələr üçün xarakterikdir. Ölkəmizdə il ərzində bir neçə dəfə əfv fərmanı imzalanır, vaxtaşırı amnistiyalar verilir. Məhz bu baxımdan, hətta Avropa İttifaqında nə qədər Azərbaycanı sevməyən insan olsa da, yenə də həmin qurum ölkəmizdə insan haqlarına necə böyük önəmin verildiyini etiraf etməyə məcburdur. Avropa İttifaqı aydın şəkildə görür ki, bu sərəncamda insanlara siyasi mənsubiyyətinə görə heç bir fərq qoyulmayıb.



Cəmiyyət üçün təhlükəli olmayan, cəza çəkdiyi müddətdə islah edilən şəxslər, bir qayda olaraq, ölkə başçısının sərəncamı ilə əfv edilirlər. Bu parametrlərə görə, son əfv sərəncamı həm Azərbaycan cəmiyyətində, həm də beynəlxalq aləmdə əks-səda doğuraraq, böyük rəğbətlə qarşılanıb".

**Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvü Rauf Zeyni hesab edir ki, imzalanan sonuncu əfv sərəncamı ilə bir çox tanınmış məhkumun da azadlığa çıxmasının belə rəyin formalaşmasına təsiri güclü olub:** "Novruz bayramı ərəfəsində belə bir sərəncamın verilməsi çox humanist addımdır. Bu sərəncamla əfv olunanların ailəsində ikiqat sevinc yaşandı. 2003-cü ildən bəri 33 əfv sərəncamı imzalanıb. Bununla əlaqədar minlərlə insan məhkumluqdan azad olunub. Bu çox böyük diqqət və qayğıdır. Ölkə Prezidenti daim vətəndaşlara qayğı göstərir. Azərbaycan xalqı ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın bu istiqamətdəki fəaliyyətini yüksək dəyərləndirir. Bununla yanaşı, beynəlxalq qurumlar və xüsusilə də Avropa İttifaqı da görür ki, Azərbaycanda siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir məhkuma eyni yanaşma ortaya qoyulur. Bu, insan haqlarına verilən ən böyük dəyər olduğu üçün, Aİ əfv qərarını birmənalı olaraq alqışlayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Sonuncu əfvin Azərbaycanda vətəndaş həmrəyliyinə təsir gücü...

**Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə növbəti əfv sərəncamı imzalaması ictimaiyyətdə böyük rəğbətlə qarşılanıb. İctimaiyyətin bütün təbəqələri ölkə başçısının sözügedən qərarını alqışlayır. Nəzərə almaq lazımdır ki, əfv sərəncamı 431 məhkuma şamil olunub.**



*"Ölkənin milli və dövlət maraqları ilə bağlı bütün məsələlər üzrə cəmiyyətdə həmrəylik mövcuddur"*

***Elçin Mirzəbəyli:*** *"Prezidentin məlum qərarı cəmiyyət tərəfindən rəğbətlə qarşılanır və yüksək səviyyədə dəstəklənir"*

Belə ki, onlardan 399-u azadlıqdan məhrumetmə cəzasının qalan hissəsini çəkməkdən azad edilib.

Prezident İlham Əliyevin fəaliyyətində humanizmin və insansevərliyin əsas prinsip olmasını rəqəmlər də təsdiqləyirlər. Çünki ölkə başçısı tərəfindən imzalanan sonuncu sərəncam 2003-cü ildən bəri sayca 33-cü əfv sənədidir. Ümumilikdə, 16 il ərzində imzalanan fərman və sərəncamlarla 4.500-dən çox şəxs azadlığa buraxılmaqla, 5 minə yaxın məhkum əfv edilib. İmzalanan əfv sərəncamları çoxsaylı ailəyə sevinc bəxş edir. Qeyd edək ki, ötən il də mayın 24-də Cümhuriyyətin 100 illiyi münasibətilə 634 şəxs əfv olunub.

Diqqətçəkən məqamlardan biri həm də ondan ibarətdir ki, əfv sərəncamı siyasi mənsubiyyətindən asılı olmayaraq, bir sıra məhbuslara şamil olunub. Düzdür, bundan əvvəlki sərəncam və fərmanlarda da belə olub. Yəni siyasi görüşlərindən asılı olmayaraq, bir çox məhbus azad edilib. Bu dəfə isə sözügedən məhbusların sayı daha çox idi. O üzdən, sözügedən qərar həm də Azərbaycanda vətəndaş həmrəyliyinin daha da güclənməsinə öz müsbət təsirini göstərəcək.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Əfv sərəncamı ölkədə vətəndaş həmrəyliyinin daha da möhkəmlənməsində necə rol oynayacaq?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, məlum qərar ümumən çox böyük əhəmiyyətə malikdir:** "Əvvəla konkret şəxslər konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb olunublar. Kimin hansı syasi görüşlərə malik olmasının cinayət əməllərinə hər hansı bağlılığı yoxdur. Prezident humanistlik göstərərək vətəndaşların, dövlət qurumlarının, Əfv Komissiyasının və insan haqları təşkilatlarının rəyini nəzərə alaraq, çoxsaylı insanın əfv olunması ilə bağlı sərəncam imzalayıb. Onların arasında siyasi dünyagörüşü fərqli olan bir sıra şəxslər də var. Həmin insanlar da konkret cinayət əməlinə görə məhkum olunublar. Ancaq ölkə başçısı humanistlik göstərərək onları əfv edib. Bu, Prezident İlham Əliyevin humanistliyinin növbəti nümunəsidir. Məsələ ondadır ki, ölkə başçısı son 10 ay ərzində 2 əfv sərəncamı imzalayıb. Sözügedən sərəncamların miqyasına baxsaq görərik ki, bu qərarlar kifayət qədər geniş və əhatəlidir. Bildiyim qədər dünyada indiyə qədər oxşar fakt olmayıb. O cümlədən, qadın məhbusların azad olunması ilə bağlı ardıcıl addımların atılmasını xüsusi qiymətləndirirəm. Bu, Azərbaycan dövlətinin humanizm mahiyyətindən irəli gələn faktordur. Eyni zamanda, digər məqamları da qeyd etmək lazımdır. Azərbaycanda cəzaların daha yüngül cəzalarla əvəz olunması ilə də bağlı addımlar atılır. Nəticədə məhbusların daha yüngül cəzalarla cəzalandırılmasına imkan yaranır. Bütün bunlar, təbii ki, ciddi humanizm xarakteri daşıyan addımlardır. Ölkədə vətəndaş həmrəyliyinə gəldikdə, Azərbaycan xalqı yekdildir, bütövdür. Ölkənin milli və dövlət maraqları ilə bağlı bütün məsələlər üzrə cəmiyyətdə həmrəylik mövcuddur. Bu həmrəylik də özünü ən müxtəlif dövrlərdə büruzə verib. Aparılan siyasət həmrəyliyin daha da güclənməsinə öz müsbət təsirini göstərir. Ümumilikdə, Prezidentin məlum qərarı cəmiyyət tərəfindən rəğbətlə qarşılanır və yüksək səviyyədə dəstəklənir".

***Vidadi ORDAHALLI***

# Sosial şəbəkə radikalları rayon əhalisinin Prezidentə əlbəəl təqdim etdiyi məktubların məzmununu qaralamaq yolu tutub...

**Bir müddət əvvəl rayonlara səfər edərkən ölkə başçısına vətəndaşlar tərəfindən təqdim edilən şikayət məktubları mövzusuna toxunmuşduq. Həmin yazıda qeyd etmişdik ki, Prezidentə bu sayda məktubun axışmasının başlıca günahkarları yerli məmurlardır.**

*"Yerlərdəki məmurlar güclü ictimai nəzarətin olduğunun fərqində olacaqlar"*

Çünki onlar əhalinin yerlərdə olan problemlərini həll etsələr, vətəndaş hər balaca məsələ ilə bağlı Prezidentə şəxsən məktub vermək kimi fikrə düşməz. Maraqlıdır ki, hakimiyyətə qarşı radikal siyasi mövqe ortaya qoyan dairələr sosial şəbəkələrdə ölkə başçısına təqdim edilən şikayət məktubları ilə bağlı mövzunu tamamilə fərqli və yanlış olan aspektə yönəltmək istəyirlər. Həmin təbliğatda qeyd edilir ki, guya məktubların Prezidentə verilməsi xüsusi təşkil edilib və şikayət adı ilə verilən zərflərin içində, əslində, Prezidentə təşəkkür ifadə edilir. Heç də inandırıcı görünməyən, kökündən yanlış olan bir mövqedir. Çünki həmin mənzərəni seyr edənlər gördülər ki, vətəndaşlar şəxsən yaxınlaşıb Prezidentə məktubu nəsə deyərək verirdilər. Məhz onların şikayət məzmunlu olduğuna elə cənab Prezidentin özü də eyham vurdu və dedi ki, bütün məktublar tam şəkildə araşdırılacaq. Sadə məntiqlə yanaşsaq, təşəkkür məktubunun nəyi araşdırıla bilər ki?

Prezidentin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev Şamaxı və Ağsuda əhali tərəfindən dövlət başçısına təqdim olunan məktublarla da bağlı məlumat verib. Z.Nağdəliyev deyib ki, Şamaxıda və Ağsuda əhali ilə keçirilən görüşlərdə dövlət başçısına təqdim olunan məktubların hamısı nəzarətə götürülüb: "Bir dənə də olsun məktub və şifahi müraciət diqqətdən kənarda qalmayacaq".

Göründüyü kimi, istər ölkə başçısının, istərsə də onun köməkçisinin açıqlaması həmin məktubların mahiyyət etibarilə şikayət xarakterli olduğunu üzə çıxarmış olur.

Ancaq ictimaiyyətin bu mövzu ilə bağlı tam məlumatlı olması, edilən şikayətlərin daha çox hansı sahələri əhatə etməsini bilmək üçün, həmin məktubları hansısa formada ictimailəşdirmək mümkündürmü?

**Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, bu olduqca maraqlı bir situasiyadır:** "Son vaxtlar ölkə başçısının əhalinin müxtəlif təbəqələri ilə birbaşa görüşdüyünün şahidi oluruq. Burada ən başlıca hədəflərdən biri də müəyyən kateqoriya insanların problemləri ilə maraqlanmaqdır. Ölkə başçısının rayonlara etdiyi səfərlər zamanı biz təəssüfedici bir mənzərənin şahidi olduq. Gördük ki, Prezidentə vətəndaşlar tərəfindən qalaq-qalaq məktublar verilir. Bu, eyni zamanda, yerli məmurların vəzifəsinin öhdəsindən layiqli şəkildə gələ bilməməsinin göstəricisidir. Həmin məktubların şikayət xarakterli olmasını təyin etmək çətin deyil. Hətta ölkə başçısına pıçıltı ilə nəyisə deyib məktub verənlər də vardı. Görünürdü ki, nədənsə şikayətçi olduqları üçün, birbaşa Prezidentə üzlərini tutublar. Hesab edirəm ki, məktubların ictimailəşməsi ideyası çox gözəldir. Bununla məşğul olmalı qurum da var. Bu yaxınlarda Prezident Sosial Tədqiqatlar Mərkəzi yaratdı və millət vəkili Zahid Orucu ora rəhbər təyin etdi. Həmin qurumun bilavasitə vəzifə səlahiyyətlərinə aid olan məsələdir. Yaxşı olar ki, yeni yaradılan qurum bütün sosial şəbəkələrdə öz hesablarını yaratsın. Həmin şikayət məktubları Sosial Tədqiqatlar Mərkəzinə istiqamətləndirilsin ki, onlar da öz səhifələrində şikayətləri paylaşsınlar. Onda siz jurnalistlər üçün də yaxşı mövzular çıxacaq, eyni zamanda, yerlərdəki məmurlar güclü ictimai nəzarətin olduğunun fərqində olacaqlar".

***İlqar Hüseynli:** "Həmin şikayət məktubları Sosial Tədqiqatlar Mərkəzinə istiqamətləndirilsin ki, onlar da öz səhifələrində şikayətləri paylaşsınlar"*



***Məhəmmədəli QƏRİBLİ***

# OPEK-in bu gün müzakirə etdiyi məsələləri 2017-ci ildə İlham Əliyev demişdi...




***Rəsul Cahangirli:** "Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan "OPEK+" formatı dünya neft bazarında çox faydalı rol oynayır"*

**Prezident İlham Əliyev 2017-ci ildə Davos İqtisadi Forumunda çıxışı zamanı neft istehsal edən ölkələrin "OPEK+" formatında iclasının keçirilməsi təşəbbüsü ilə çıxış edib.**

Bu format OPEK-in üzvü olan ölkələrlə neft hasil edən, lakin bu qurumda təmsil olunmayan ölkələrin birgə toplantısını, enerji resurslarının hasilatı və ixracı, dünya bazarında neftin qiyməti və digər məsələlərin vahid formatda müzakirəsini nəzərdə tutur. Həmin dövrdə ölkə başçısı neftin qiymətinin stabilləşdirilməsi və 70 dollar civarında saxlanması təşəbbüsünü də irəli sürmüşdü.

O üzdən, hazırda Bakıda "OPEK+" formatının baş tutmasında, habelə dünya bazarında neftin qiymətinin 60-70 dollar çərçivəsində qalmasında Prezident İlham Əliyevin xidmətləri böyükdür. Məsələ ondadır ki, Prezident İlham Əliyev öz səmərəli təklifləri, irəli sürdüyü təşəbbüsləri ilə dünya enerji bazarında stabilləşməyə və proqnozlaşdırmaya mühüm töhfə verir. Bunun nəticəsidir ki, bu istiqamətdə sabitlik hökm sürür. Dünya bazarında neftin qiymətində ciddi təbəddülatlar yaşanmır. OPEK üzvü olan və olmayan dövlətlər səmərəli şəkildə əməkdaşlıq edirlər. O baxımdan "OPEK+" formatı çox səmərəli əməkdaşlığı özündə ehtiva edir.

Onu da qeyd edək ki, martın 17-18-də Bakıda OPEK və qeyri-OPEK ölkələrinin Müştərək Texniki Komissiyasının 27-ci və Nazirlərin Birgə Monitorinq Komitəsinin 13-cü iclasları keçiriləcək. OPEK-in baş katibi Məhəmməd Barkindo bildirib ki, OPEK və partnyorları bazarda neft həcminin artımının saxlanılması haqqında razılaşmanın icrasının gedişini qiymətləndirmək üçün məhz Azərbaycanda görüşəcək. Gözlənir ki, OPEK-ə üzv ölkələr və Rusiya hasilatın gündəlik 1,2 milyon barrel ixtisarı haqqında razılaşmanı ən azı bir neçə ay müddətinə uzadacaq.

Sözügedən məsələni baki-xeber.com-a şərh edən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan "OPEK+" formatı dünya neft bazarında çox faydalı rol oynayır: "Əvvəla, sözügedən təşəbbüsü Prezident İlham Əliyev qaldırmaqla uzaqgörən siyasətçi olduğunu bir daha göstərdi. Məsələ ondadır ki, 2014-cü ilin ortalarından başlayaraq dünyada neftin qiyməti ucuzlaşmağa başladı. Bu da dünya iqtisadiyyatına mənfi təsir göstərdi. Çünki neftin ucuzlaşması təkcə neft ixrac edən ölkələrin gəlirlərini azaltmadı. Bu həm də qeyri-neft ölkələrinə mənfi təsir etdi. Çünki yaşanan ucuzlaşma ilə əlaqədar həmin ölkələrin istehsal etdiyi məhsulların ixracında azalma yaşandı. Bu da neft ixrac edən ölkələrin gəlirlərinin azalması ilə əlaqədar idi. Nəzərə almaq lazımdır ki, neft gəlirləri azalırsa, bu qeyri-neft məhsullarının ixracına öz təsirini göstərir. Qeyri-neft məhsullarını istehsal edən ölkələr onu neft hasil edən ölkələrə ixrac edirlər.

Bütün bunlar bir-biri ilə sıx bağlı olduğu üçün dünya iqtisadiyyatına öz təsirini göstərir. Ona görə də yaradılan "OPEK+" formatı dünyada neftin qiymətinin sabitləşməsinə müsbət təsir göstərdi. Bu da öz növbəsində dünya iqtisadiyyatını böhrandan xilas etdi. O baxımdan hesab edirəm ki, OPEK üzvü olan və olmayan ölkələrin əməkdaşlığı səmərəli nəticələr verir".

***Vidadi ORDAHALLI***

# Sonuncu əfvin pozitivliyini hətta radikal düşərgə təmsilçiləri də etiraf etdi...

**Prezident İlham Əliyevin imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam böyük rəğbətlə qarşılanıb.**



Qeyd edək ki, son əfv fərmanı ilə azadlığa çıxanlar arasında çoxlu sayda tanınmış məhkumlar da var. Adları beynəlxalq təşkilatların siyahısında problemli məhbuslar kimi qeyd olunan həmin şəxslərin böyük əksəriyyətinin ölkə başçısının humanist addımı ilə əfv edilməsini hakimiyyətə qarşı radikal mövqeyi ilə seçilən şəxslər də dəstəkləyiblər.

AXCP sədri Əli Kərimli Prezident İlham Əliyevin imzaladığı əfv fərmanına münasibət bildirib. O, özünün "Facebook" səhifəsində bunları yazıb: "Siyasi məhbusların bir qrupunun azadlığa çıxması hamımızı sevindirir. Hər kəsi təbrik edirəm! Müavinlərim Gözəl Bayramlı və Fuad Qəhrəmanlı, NİDA-çı siyasi məhbuslar İlkin Rüstəmzadə, Qiyas İbrahimov, Bayram Məmmədov və Elgiz Qəhrəman, siyasi girovlarımız - qaynım Elnur Seyidov və Natiq Ədilovun qardaşı Murad Ədilov, keçmiş səhiyyə naziri Əli İnsanov, müsavatçı Əlikram Xurşudov, keçmiş müstəntiq Rüfət Səfərov, yazar Tofiq Həsənli, bloqçu Rəşad Ramazanov, jurnalist Fikrət Fərəməzoğlu, Müsəlman Birliyi Hərəkatının s?dr müavini Elçin Qasımov, ilahiyyatçılar Zülfüqar Mikayılov, Elman Ağayev, dindar siyasi məhbuslar Lətif Əhmədov, Rasim Cəbrayılov, Nizami Qəniyev, Ruzi İsmayılov, Nicat Əliyev azadlığa çıxacaq. Dostlarımızın bir qisminin bayram ərəfəsi azadlığa çıxması bizi sevindirir. Ancaq təəssüf ki, yenə də əfv sərəncamı yarımçıq oldu, siyasi məhbusların az bir qismini əhatə etdi. Əfv sərəncamı ilə azadlığa çıxan bütün məhbusların ailələrini, yaxınlarını təbrik edirəm. Birgə mübarizəmizlə digər siyasi məhbusların da azad edilməsinə nail olacağıq".

Sabiq deputat, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn də Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamını alqışlayıb. Müxalifət partiyasının sədri bu barədə "Facebook"dakı şəxsi səhifəsində fikirlərini bölüşüb:

"Gözəl xanım Bayramlı daxil olmaqla bu gün azadlığa çıxan bütün məhbuslara "həmişə azadlıqda" deyirəm. Bu anda heç bir əlavə şərh vermədən bir qrup siyasi məhbusun azad olunması addımını alqışlayıram və bütün siyasi və vicdan məhbuslarının dərhal azad olunmasını arzu və tələb edirəm. Allah qalanlarının da və ümumiyyətlə, bütün bağlı qapıları açsın!"

Uzun müddətdir siyasi arenadan uzaqlaşan Azərbaycan Liberal Partiyasının lideri Lalə Şövkət Hacıyeva da Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamına münasibətini bildirib. Lalə Şövkətin sərəncamla bağlı fikirlərini partiyanın sədri Əvəz Temirxan sosial şəbəkə hesabından paylaşıb: "Bu gün azadlığa çıxan yurddaşlarımı təbrik edirəm! Şəxsən tanıdığım Əli İnsanovu, Gözəl Bayramlını, Fuad Qəhrəmanlını və hər birinizi".

Sabiq millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə də Prezidentin imzaladığı əfv fərmanını alqışladığını bildirib: "Ümumilikdə siyasi məhbus siyahısında olan 50-yə yaxın şəxs əfv olunub. Səhv etmirəmsə, orada 44, ya 45 nəfər din xadimi, həmçinin Nardaran işinə, Quba, İsmayıllı hadisələrinə görə həbs edilənlər var. O cümlədən siyasi təşkilatların üzvü olanlar var ki, bunlar ayrı-ayrı hüquq müdafiə təşkilatlarının siyahısında siyasi məhbus kimi qeyd olunurdular. Alqışlayıram! Hər halda, 2019-ci il prosesləri yeni bir müstəviyə daşıya bilər".

Ümid Partiyasının sədri əfv fərmanının dövlətimiz üçün faydalarına da toxunub: "Siyasi məhbusların həbsdən azad olunması gələcəkdə imkan verir ki, siyasi partiyalarla da dialoq yaransın və cəmiyyət barış, həm də dialoq müstəvisində Azərbaycanın problemlərini həll edə bilsin. Zatən Azərbaycana da, Azərbaycanın problemlərinə də, regiondakı yerimizə, vəziyyətimizə də yaraşan barış və dialoqdur. Çünki bizim vəziyyətimiz olduqca çətindir. Həm Cənubi Qafqazda, həm dünyadakı yerimiz olduqca çətindir, böyük problemlərimiz var. Ya zəlzələdən, ya vəlvələdən Ermənistan-Azərbaycan münaqişəsi gəlib elə bir yerə dirənib ki, burdan yalnız dil, düşüncə, fikir, vətəndaş birliyi ilə çıxmaq mümkündür. Bununçünsə ilk növbədə hakimiyyət elə adddımlar atmalıdır ki, cəmiyyətin müxtəlif düşüncəli adamlarını bir araya, bir masa arxasına gətirə bilsin. Güman edirəm ki, bu da o addımlardan biridir".

Vətəndaş İnkişaf Partiyasının rəhbəri Əli Əliyevin fikrincə, bu, özlüyündə müsbət addımdır. Onun sözlərinə görə, hakimiyyətin əfv fərmanını imzalaması natamam da olsa müsbət məqam kimi qiymətləndirilməlidir: "Bizim mövqeyimiz maksimalistdir. Hesab edirik ki, Avropa məkanında yerləşən ölkəyiksə, burada siyasi məhbus olmamalıdır. İstərdim ki, bu fərman hamısını əhatə etsin. Bu gün çıxan şəxslər də hakimiyyət üçün problemli şəxslər idi. Gözəl Bayramlı, Əli İnsanov, Qiyas və Bayram, Rüfət Səfərov, Fuad Qəhrəmanlı bu kateqoriyadadır. Onların azadlığa çıxması müsbət hadisə kimi qiymətləndirilməlidir".

Ə.Əliyev hesab edir ki, bu, hakimiyyətin xoş məramı nümayişi kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, cəmiyyətə müsbət, pozitiv mövqeyin ötürülməsi baş verib: "Amma istərdik ki, bu addımlar, qərarlar daha dərin, fundamental məsələləri də əhatə etsin. Siyasi və ölkənin təməl məsələlərini də əhatə etsin. Bir var törəmə, zahiri, vacib işlər, bir də var fundamental işlər. Vacib işlərin bir qismi görülüb artıq. Fundamental işlərin görülməsi üçün sistemli addımlar atılmalıdır".

Xaricdən yayımlanan Meydan TV-nin rəhbəri, bloger Emin Milli Prezident İlham Əliyevə əfv sərəncamına görə təşəkkür edib. O, özünün Facebook səhifəsində bunları yazıb:

"İlham Əliyevə bu gün xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bizim mübarizəmizin, ictimai fikrin böyük rolu var, amma Əliyevin son addımları və bu addımı da onun özünün cəsarətli qərarlarıdır. Demokratik ölkələrdə hər zaman ictimaiyyətin fikri nəzərə alınır və heç bir prezident buna diqqət ayırdığı üçün zəif, gücsüz hesab edilmir.

Çox istəyərdim ki, Azərbaycana qayıdım və İlham Əliyevdən belə real islahatlar haqqında Meydan TV-də canlı müsahibə alım. İlham Əliyev bunları etsə, həm ölkədə, həm də dünyada çox pozitiv, güclü, qorxmaz və maraqlı bir lider kimi böyük rəğbət qazanar və bütün Azərbaycanı irəliyə aparar.

İlham Əliyev 16 ildir hakimiyyətdədir. Ancaq indi, məhz hakimiyyətinin 16-cı ilində baş verən bu dəyişikliklər onun hakimiyyətini daha da möhkəmlədə bilər.

Mən siyasətçi deyiləm və mənim üçün kimin hakimiyyətdə olması yox, ölkənin necə idarə olunması daha vacibdir. Hər zaman düzü tərifləyib, səhvi göstərən biri kimi bu gün İlham Əliyevi ictimai fikrə önəm verərək, belə bir addım atdığı üçün təbrik edirəm. İnanıram ki, bir gün o Meydan TV-də müsahibə verəcək və tariximizdə yeni bir mərhələnin gəldiyini bəyan edəcək".

Qeyd edək ki, "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam 431 nəfərə şamil olunub. Onların arasında sabiq səhiyyə naziri Əli İnsanov, AXCP sədrinin müavini Gözəl Bayramlı, Şəmsiyyə Bayramlı, Fuad Qəhrəmanlı, Beytulla Hüseynov, NİDA-çılar - İlkin Rüstəmzadə, Qiyas İbrahimov, Bayram Məmmədov, Elgiz Qəhrəman, jurnalist Fikrət Fərəməzoğlu və başqaları da var.

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni vəhşiliyinin yeni təzahürü - psixi xəstə azərbaycanlını da yaraladılar

**Məlum olduğu kimi, mart ayının 15-dən 16-a keçən gecə Qazax rayon sakini Elvin İbrahimov adlı şəxs Qazax rayonunun Ermənistan Respublikası Noyemberyan rayonu ilə sərhəd xəttində yolu azaraq qarşı tərəfə keçib.**




*"Aidiyyəti qurumlar bu məsələni nəzarətdə saxlamalı, Elvinin qaytarılması üçün lazimi səylər göstərilməlidir"*

## Rasim İsgəndərli: *"Müharibə qanunlarına əsasən, qarşı tərəfdən kimsə əli silahsız gələrsə, o şəxsə atəş açılmamalıdır"*

Dövlət Sərhəd Xidmətinin yaydığı məlumtda qeyd olunur ki, sərhədi azaraq keçən şəxs ruhi əsəb xəstəsidir. Aparılmış ilkin araşdırma zamanı məlum olub ki, E.İbrahimov Qazax rayonlararası ruhi xəstəxanasında qeyyiyyatdadır və onun xəstəliyi ilə əlaqədar 2-ci qrup əlil olması məlum olub.

Qeyd edək ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Azərbaycan vətəndaşının Ermənistan tərəfə keçməsi ilə bağlı məlumat yayıb. Məlumatda qeyd olunur ki, E.İbrahimov sərhədi keçərkən Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində yaralanıb. Aidiyyəti beynəlxalq təşkilatlar E.İbrahimovun yaralanması və Ermənistan hərbçiləri tərəfindən saxlanması faktını təsdiq edərək, həyatı üçün təhlükənin olmadığını bildiriblər.

Bəlli olduğu kimi, ermənilər əli silahsız, psixi pozuntuları olan şəxsə atəş açıblar. O da məlumdur ki, ermənilər hər zaman əli silahsız və zəif şəxsləri hədəf seçiblər. Ekspertlər ermənilərin silahsız, psixi pozuntuları olan şəxsə atəş açmasını erməni vandalizminin növbəti təzahürü kimi dəyərləndirirlər.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Rasim İsgəndərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, müharibə qanunlarına əsasən, qarşı tərəfdən kimsə əli silahsız gələrsə, o şəxsə atəş açılmamalıdır.** Lakin ermənilər, hər zaman olduğu kimi, silahsız şəxsə atəş açıblar. Xocalı faciəsi bunun bariz nümunəsidir: "Xocalı faciəsi zamanı ermənilərin necə qəddar olduqları və müharibə qanunlarına riayət etmədikləri bir daha beynəlxalq ictimaiyyətə bəlli oldu. Ermənilər silahlanaraq dinc əhaliyə dəfələrlə atəş açıblar. Onlar dəfələrlə qadına, uşağa, yaşlıya və xəstəyə atəş açıblar. Halbuki, bizim vətəndaşlarımızda silah olmayıb.

Bu günlərdə yolu azaraq Ermənistan sərhədini keçən şəxs ermənilər tərəfindən yaralanıb. Yolu azaraq keçən şəxsin ruhi əsəb xəstəsi olduğu aşkar olunub. Səhhətində problemi olan şəxsə atəş açılaraq yaralanması və onun əsir düşməsi vəziyyətini daha da ağırlaşdıracaq. Aidiyyəti qurumlar bu məsələni nəzarətdə saxlamalı, Elvinin qaytarılması üçün lazımi səylər göstərilməlidir".

***Günel CƏLİLOVA***

# Adını siyasi məhbus qoyub istifadə etdilər, o isə çıxan kimi müxalifət liderlərinə "diktatorlar" dedi...

***Qabil Hüseynli:** "... azadlıqdan məhrum edilən gənclərlə liderlər lazımi şəkildə maraqlanmayıblar"*

**Prezident İlham Əliyevin imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı ilə azadlığa buraxılan NİDA hərəkatının fəalı Qiyas İbrahimov "siyasi məhbus"ların bir hissəsinin azad edilməsinin Azərbaycanda siyasi dəyişikliklərin başlanğıcı olduğuna ümid etdiyini bildirib.**



*"Ən başlıcası isə, müəyyən maraqlar naminə onların həbsindən istifadə edilməsi qənaəti də ona bu sərt ifadəni səsləndirməyə əsas verə bilər"*

Q.İbrahimov KİV-ə bildirib ki, müxalif liderlərdən heç bir şey gözləməyə dəyməz, çünki onlar potensial diktatorlardır. Sərbəst buraxılan fəal onu da vurğulayıb ki, özünü müxalifətin liderlərindən hesab etmir və özündə liderlik potensialı görmür. Həbsdən azad edilən gənc müxalifətçinin müxalifət liderlərini potensial diktator adlandırmasını necə dəyərləndirmək olar?

**Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, müxalif mövqeli gənclərin azad olunduqdan sonra müsahibələrini izləyib:** "Mən baxdım, bir çoxu çox iddialı danışır. Bu da onların yaş dövrü və müxalifətin onların ətrafında böyük reklam aparmasından irəli gəlir. Elələri var ki, sanki özlərini potensial lider kimi görürlər. Amma Q.İbrahimov müxalifət liderləri barədə səsləndirdiyi ittihamdan sonra deyib ki, özünü də həmin statusda görmür. İlkin olaraq belə anlaşıla bilərdi ki, Qiyas müxalifət liderlərini diktator adlandırmaqla özü həmin statusa iddiasını qoymaq istəyir, amma bunu da inkar edir. Deməli, həbsdə olduğu müddət ərzində gənc gəldiyi nəticədən sonra bu fikri iddia edir. Dəyərləndirməni hansı parametrlər üzrə apardığı barədə də nəsə deyə bilmərəm. Yəni onun əvəzindən şərh vermək çətindir. Amma hesab edirəm ki, həmin gəncin bu qənaətə prosesləri qapalı məkandan müşahidə edərək gəlməsi əsassız yerə deyil. O görür ki, uzun illərdir müxalifətin liderləri dəyişmir. Partiya daxilində onlara qarşı çıxanlarla çox sərt üsullarla davranırlar. Hətta partiyadan belə xaric edirlər. Düzünü desək, heç müxalif partiyaların ətrafında da adam qalmayıb. Yəqin ki, həmin gəncin türmədə xaricdəki siyasi partiyalarla bizimkilər arasında müəyyən paralellər aparmağa vaxtı çox olub. Yəqin görüb ki, hətta müxalifəti təmsil edib müəyyən səhvlərə yol verərək, azadlıqdan məhrum edilən gənclərlə liderlər lazımi şəkildə maraqlanmayıblar.

Ən başlıcası isə, müəyyən maraqlar naminə onların həbsindən istifadə edilməsi qənaəti də ona bu sərt ifadəni səsləndirməyə əsas verə bilər. Yəqin ki, həmin gənc yaxın zamanlarda bu barədə daha geniş açıqlama verəcək və orada bunu daha detallı izah edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Hakimiyyət-müxalifət dialoqu mövzusu yenidən aktuallaşmağa başlayıb - perspektiv və ehtiyac varmı...

**Ölkə başçısının imzaladığı son əfv fərmanı ilə adları problemli məhbuslar kimi qeyd olunan çoxlu sayda şəxsin azad olunması siyasi arenada rəğbətlə qarşılanıb. Ən maraqlısı budur ki, indiyə qədər hakimiyyətin heç bir müsbət addımını belə təqdir etməyən radikal düşərgə nümayəndələri də son əfv fərmanını müsbət dəyərləndiriblər.**

***Fəzail Ağamalı:** "Müxalifət iqtidara qarşı qərəzli mövqedən imtina edərək konstruktiv mövqe nümayiş etdirsə, əlbəttə, iqtidar tərəfindən də onlara doğru addımlar atıla bilər"*

***Əli Əliyev:** "Dialoq bu hadisələrin ən vacib məqamı ola bilər"*

***Eldəniz Quliyev:** "Atılan addımı mütərəqqi sayıram və əminəm ki, bunun siyasi qütblərin yaxınlaşmasına müsbət təsiri ola bilər"*







Bu müzakirələrdə həm də belə bir fikir sələndirilir ki, son vaxtlar hakimiyyətin atdığı addımlarda müxalifətə yönəlik ciddi jestlər nəzərə çarpır, müxalif cameə bunu doğru dəyərləndirməyi bacarsa, iqtidarla müxalifət arasında dialoq baş tuta bilər. Belə bir dialoqun mümkünlüyünə siyasilər necə yanaşırlar?

**Radikal müxalif fikirli insanların cəmləşdiyi Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev qəzetimizə bildirdi ki, iqtidarla müxalifət arasında dialoqa hər zaman ehtiyac olub:** "Beynəlxalq təcrübə də göstərir ki, bir çox məsələni çözmək üçün dialoq zəruridir. Hesab edirəm ki, bunu adına konstruktiv deyilən, əslində isə iqtidarı dəstəkləyən partiyalarla deyil, real müxalif qüvvələrlə iqtidarın yüksək təmsilçiləri arasında aparmaq lazımdır. Bəli, etiraf etməliyik ki, bunun üçün hazırda real zəmin yaranıb. Son əfv sərəncamı ilə bağlı müxtəlif fikirlər səslənir. Müxalif cameədə bunu normal addım hesab edənlər də var, hər yaxşı addımı belə inkar edənlər də mövcuddur. Biz rəyləri deyil, faktı əsas götürməliyik. Fakt ondan ibarətdir ki, böyük əfv sərəncamı olub. Şəxsən mən bunu alqışlayıram. Bunu deməsəm düzgün olmaz. Amma bunu da deməliyəm ki, yarımçıqlıq var. Mən çox istərdim ki, Seymur Həzi, Asif Yusifli kimi adamların da adı həmin sərəncamda olaydı. Elə adamlar var ki, onların da azad olunması dialoq mühitinə müsbət təsir edə bilər. Bütün bunlara baxmayaraq, atılan addımı mütərəqqi sayıram və əminəm ki, bunun siyasi qütblərin yaxınlaşmasına müsbət təsiri ola bilər".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev qəzetimizə bildirdi ki, hakimiyyətin son addımlarını xoş hadisə kimi dəyərləndirmək lazımdır:** "İlham Əliyevin idarəçiliyi dönəmində ikinci dəfədir ki, adları siyasi məhbus kimi qeyd olunan şəxslərin azad olunması belə geniş siyahı ilə əhatə olunur. Təbii ki, yaxşı olardı bu problem tamamilə çözülsün. Avropa siyasi çoğrafiyasında təmsil olunan ölkə kimi bizim bu problemdən tam yaxa qurtarmağımız təqdirəlayiq olardı. Uzunmüddətli sərt idarəetmə fonunda belə bir addımın atılması xoş məram kimi qiymətləndirilməlidir. Davamlı olması üçün cəmiyyətdə pozitiv dəyər almalıdır. Hesab edirəm ki, bu cür addımlar tendensiya xarakteri daşımalıdır. Son iki ay ərzində biz bu tip addımların mütəmadi atıldığını görürük. Hakimiyyət cəmiyyətin müxtəlif təbəqələri ilə təmaslara cəhd edir. Dialoq da bütün bu müsbət işlərin kulminasiyası ola bilər. Çünki ölkədəki mənfi proseslərin çoxu siyasi anlaşılmazlıqdan qaynaqlanır. Dialoq bu hadisələrin ən vacib məqamı ola bilər. Çünki biz ölkəmizin bütün problemlərini öz aramızda vasitəçi olmadan həll edə bilərik. Hesab edirəm ki, dialoq çox zəruridir. Bunun üçün tərəflər addımlar atmalıdırlar. Ən əsası isə bu, hakimiyyətdən asılı olan məsələdir".

Təəssüf ki, dəfələrlə cəhd etməyimizə baxmayaraq, YAP funksionerlərindən bu mövzuya münasibət öyrənə bilmədik.

**Ancaq uzun illərdir hakimiyyətin siyasi xəttini müdafiə edən Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı hesab edir ki, demokratik cəmiyyətdə iqtidarla bərabər, müxalifətin olması çox vacib şərtdir:** "Bu, ölkəmizin də inkişafı üçün ciddi bir şərtdir. Çox arzu olunandır ki, iqtidarın bu və ya digər hərəkətlərini qəbul etməyən, özü buna başqa cür yanaşan, müxalifət mövqeyində duran insanlar qanunun aliliyinə söykənərək bu fəaliyyəti göstərsinlər. Prezidentimiz hər bir vətəndaşa, məmura nümunədir. Çox yaxşı olar ki, vətəndaşımız, müxalifətçilər, məmurlar cənab Prezidentdən nümunə götürsünlər. O zaman məmur-vətəndaş münasibətlərində, siyasi münasibətlərdə daha yüksək səviyyəli sivil münasibətlər hökm sürəcək. Bu gün Azərbaycanda siyasi baxımdan qarşıdurma elementləri, demək olar ki, yox dərəcəsindədir. Müxalifət partiyalarının mütləq əksəriyyəti öz fəaliyyətini Azərbaycan qanunvericiliyi çərçivəsində qururlar, iqtidarla onların dövlətçilik baxımından hər hansı bir problemləri yaşanmır. Bu cür üstün cəhətləri, əlbəttə, unutmaq olmaz. Müxalifətlə iqtidar arasında münasibətlərin daha yüksək səviyyədə qurulması üçün bundan sonra hər iki tərəfdən yeni addımlar atıla bilər. Müxalifət iqtidara qarşı qərəzli mövqedən imtina edərək konstruktiv mövqe nümayiş etdirsə, əlbəttə, iqtidar tərəfindən də onlara doğru addımlar atıla bilər. Bizim çox ciddi problemimiz var - Qarabağ problemi. Torpaqlarımızın işğalda olması bizim hər birimizin üzərinə böyük məsuliyyət qoyur. Burada iqtidar-müxalifət anlayışı tamamilə kənara qoyulmalıdır. Birmənalı olaraq bu anlayışdan imtina edib hər birimiz işğaldakı torpaqlarımızın azad edilməsi üçün əlimizdən gələni etməliyik. Bununla bağlı iqtidarla müxalifət arasında dialoq da təşkil oluna bilər. Ölkəmizin sosial-iqtisadi inkişafı, digər vacib məsələlərlə bağlı iqtidar partiyası ilə müxalifət partiyaları arasında dialoqlar da təşkil oluna bilər. Bunlar siyasi mühit üçün də faydalı olar. Gələcəkdə bütün bunların olmasını istisna etmirəm".

***Məhəmmədəli QƏRİBLİ***

**Bu gün dünyaının iqtisadi gündəmində xüsusi diqqət mərkəzində yer alan məqamlardan biri də neftin qiymətləri ilə bağlıdır. B məsələ Bakıda baş tutan OPEC və qeyri-OPEC ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclasında da əsas müzakirə predmetlərindən birini təşkil edib. Xatırladaq ki, 14 neft ölkəsi və OPEC Katibliyinin yüksək səviyyədə təmsil olunduğu bu tədbir Prezident İlham Əliyevin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsi təklifi ilə baş tutub.**

# Bakı iclası OPEC-in dünya neft proseslərinə təsirində yeni mərhələ açacaq...




Ekspertlər hesab edir ki, bu təklifin qəbulu neft bazarının tənzimlənməsi məqsədilə OPEC+ formatının yaradılması təşəbbüsü ilə ilk dəfə çıxış edən Azərbaycan Prezidentinin enerji siyasətinə verilən yüksək qiymətin göstəricisidir. Belə ki, hələ 2016-cı ilin yanvarında Davos Forumunda Azərbaycan Prezidenti qiymət sabitliyinə nail olmaq üçün belə bir əməkdaşlıq təşəbbüsünü irəli sürərək bildirib ki, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər. Məhz bundan sonra müvafiq formatın yaradılması istiqamətində əməli addımlar atılıb. Neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan OPEC+ əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirərək, bu formatda keçirilən tədbirlərə ev sahibliyi edir və neft bazarının tənzimlənmə prosesinə töhfə verir.

Qeyd edək ki, Nazirlərin Birgə Monitorinq Komitəsinin 13-cü iclasında OPEC-in baş katibi Məhəmməd Barkindo ilə yanaşı, OPEC prezidenti, Venesuelanın neft naziri və Dövlət Neft Şirkətinin prezidenti Manuel Kevedo Fernandes, Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih iştirak edib. Tədbirə, həmçinin OPEC üzvləri - Əlcəzair, BƏƏ, Küveyt, İraq, Liviya, Nigeriya, Konqo, qeyri-OPEC ölkələrindən isə Rusiya, Qazaxıstan, Bəhreyn və Bruneyin yüksək səviyyəli nümayəndə heyəti qatılıb. Belə görünür ki, Bakı tədbirindən sonra neft hasilatçıları bu məhsulun qiymətini sabit saxlamaq və müəyyən qədər yüksəlişinə nail olmaq üçün müvafiq addımlar atmaqda israrlıdır.

Qeyd edək ki, məhz Bakı göürüşündə bir sıra mühüm addımlar atılıb. Belə ki, OPEC və qeyri-OPEC ölkələrinin əməkdaşlığının davam etdirilməsi, hasilatın azaldılmasının davamı və digər istiqamətlərdə yeni ilkin razılıqlar əldə olunub. Rusiyanın energetika naziri Aleksandr Novak bildirib ki, OPEC+ sazişinə qoşulan ölkələrin müddətsiz əməkdaşlığına dair xartiya isə nazirlərin aprel ayına planlaşdırılan növbəti görüşündə hazırlanıb yekunlaşdırıla bilər. Lakin artıq bunun üçün ilkin əsaslar məhz Bakıda hazırlanıb.

Aleksandr Novak da qeyd edib ki, Bakıda müvafiq görüşlər keçirilib və xartiyaya hazırlıq məsələsi müzakirə olunub. Nazir OPEC+ əməkdaşlığının müsbət nəticələrinin olduğunu bildirib: "Dekabr ayında hasilatın azaldılması ilə bağlı qəbul olunmuş qərar göstərdi ki, bu düzgün qərardır və qəbul olunmuş qərar bazara stabillik gətirib". Yeri gəlmişkən onu da qeyd edək ki, Bakı görüşündən sonra hasilatçıların neft emalının səviyyəsini azaltması gözlənir. Bura ən böyük hasilatçılar sayılan Rusiya və Səudiyyə Ərəbistanı da daxildir. Aleksandr Novak bildirib ki, artıq Rusiya martın sonu, aprelin əvvəlində OPEC+ çərçivəsində hasilatı üzərinə götürdüyü həcmdə azalda biləcək: "Rusiya üzərinə götürdüyü öhdəliyi yerinə yetirir. Belə ki, Moskva keçən ilin dekabr ayında hasilatın azaldılması ilə bağlı razılığa qoşulanda üzərinə götürdüyü həcmdə kvotanı bir neçə aya tam yerinə yetirəcəyini bildirmişdi. İki il əvvəl də dekabr ayında belə bir öhdəlik götürmüşdü. İndi deyə bilərəm ki, hazırda məqsədə iki il əvvəlkindən daha tez çatırıq. Martın sonu, aprelin əvvəlində nəzərdə tutulan hasilat kvotaya çatacaq".

Xatırladaq ki, OPEC+ ölkələrinin ötən il dekabrın 7-də qəbul etdikləri qərara əsasən, alyans bu ilin birinci yarısında hasilatı 1,2 milyon barrel azaldacaq. Rusiya isə bu həcmin 228 min barrellik payını üzərinə götürüb. Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih də bildirib ki, aprel ayında Səudiyyə Ərəbistanı gündəlik hasilatı mart ayına nisbətdə 100 min barrel azaldacaq və hasilat 9,7 milyon barrel təşkil edəcək. Digər hasilatçılar, o cümlədən Azərbaycan da hasilatı azaltmağı düşünür. Azərbaycanın energetika naziri Pərviz Şahbazov Bakının üzərinə götürdüyü bütün öhdəliklərə tam şəkildə əməl etdyini bildirir "Neft bazarında hazırkı sabitlik və balansı nəzərə alaraq bizim əməkdaşlığı davam etdirmək və onu daha da gücləndirməkdən, gələcəkdə əməkdaşlığı uğurla davam etdirmək üçün əməkdaşlığa təkan verməkdən başqa yolumuz yoxdur. Bunun üçün bizim bütün zəminlər var". P.Şahbazov qeyd edib ki, Azərbaycan OPEC+ razılaşmasının yerinə yetirilməsində lap əvvəldən, 2016-cı ildən bəri həmişə fəal iştirak edib: "Azərbaycan, həmçinin, OPEC+ formatının yaradılmasında və vasitəçilik fəaliyyətində fəal iştirak edib".

Digər hasilatçıların da müvafiq addımlar atmaları fonunda neft bazarında gələn ayın əvvəllərindən başlayaraq qiymətlərdə yeni yüksəliş gözlənir. Bu isə o deməkdir ki, OPEC+ ölkələrinin hasilatın azaldılması ilə bağlı öhdəlikləri, bu xüsusda onların Bakı görüşü artıq müsbət nəticələr verir.

***Nahid SALAYEV***

**Məlum olduğu kimi, Bakıda OPEC və qeyri-OPEC ölkələrinin nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) 13-cü iclası öz işinə başlayıb. Tədbir Prezident İlham Əliyevin təklifi ilə keçirilir. Toplantıda 14 neft istehsalçısı ölkə və OPEC Katibliyi yüksək səviyyədə təmsil olunur.**

# OPEC+ formatı daha səmərəli olmağa başlayır - Azərbaycanın təşəbbüsləri həlledicidir...

## *Əli Əlirzayev: "Belə bir tədbirin Bakıda keçirilməsi Azərbaycanın həm iqtisadi, həm də siyasi nüfuzunun artmasının göstəricisidir"*




*"OPEC+ formatı dünya bazarında neftin qiymətinin tənzimlənməsinə öz müsbət təsirini göstərir"*

Qeyri-OPEC ölkələrindən Rusiya, Qazaxıstan, Bəhreyn və Bruney nazir və yüksək səviyyəli nümayəndə heyəti ilə iclasa qatılıb.

Bütövlükdə, sözügedən təklifin qəbulu neft bazarının tənzimlənməsi məqsədilə OPEC+ formatının yaradılması təşəbbüsü ilə ilk dəfə çıxış edən Prezident İlham Əliyevin enerji siyasətinə verilən yüksək qiymətin göstəricisidir. Belə ki, hələ 2016-cı ilin yanvarında ölkə başçısı qiymət sabitliyinə nail olmaq üçün Davos Forumunda belə bir əməkdaşlıq təşəbbüsünü irəli sürüb. Prezidentin fikrincə, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər. Neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan OPEC+ əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirir. Bu formatda keçirilən tədbirlərə ev sahibliyi edir və neft bazarının tənzimlənmə prosesinə töhfə verir.

Bütün bunlarla yanaşı, tədbirin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq arenada rolu və yerinin, nüfuzunun güclənməsi ilə bağlıdır. Azərbaycan ərazicə bir qədər kiçik ölkə olsa da, yürütdüyü daxili və xarici siyasət, icra etdiyi nəhəng beynəlxalq layihələrlə dünya xəritəsində özünəməxsus yer tutub.

Ümumilikdə, OPEC+ formatının Bakıda keçirilməsində Azərbaycanın rolunu ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin fikrincə, Azərbaycanın dünyanın enerji xəritəsində artan rolu və nüfuzu belə bir mötəbər tədbirin Bakıda keçirilməsinə gətirib çıxarıb:** "Nəzərə almaq lazımdır ki, Azərbaycanın sözügedən məsələdə son illər dünyada nüfuzu xeyli artıb. İstər OPEC, istərsə də qeyri-OPEC ölkələri Azərbaycana böyük etimad göstərirlər. OPEC+ formatı dünya bazarında neftin qiymətinin tənzimlənməsinə öz müsbət təsirini göstərir. Dünyada həm neft istehsalçıları var, həm də neft istehlakçıları. İstehlakçılar istəyirlər ki, neftin qiyməti daha ucuz olsun. Bu isə neft hasil edən ölkələrin mənafeyinə uyğun deyil. Ona görə də OPEC+ formatı çərçivəsində keçirilən görüş mühüm əhəmiyyət kəsb edir. Belə bir tədbirin məhz Bakıda keçirilməsi təsadüfi deyil. Ona görə ki, Azərbaycanın həm OPEC, həm də qeyri-OPEC ölkələri arasında böyük nüfuzu var. Azərbaycanın nüfuzunun göstəricisidir ki, Bakıda belə bir tədbir keçirilir. Nəzərə almaq lazımdır ki, Azərbaycan özü neft ölkəsidir. Bu, məsələnin iqtisadi tərəfi. İkinci tərəfdən, Azərbaycan ümumən bir sıra digər beynəlxalq tədbirlərə evsahibliyi edir. Bütün bunlar da, istər-istəməz, Azərbaycanın nüfuzunu artırır. Bakıda keçirilən tədbir neftin qiymətinin tənzimlənməsində kompromis variantın tapılmasına öz müsbət təsirini göstərəcək. Bütövlükdə, belə bir tədbirin Bakıda keçirilməsi Azərbaycanın həm iqtisadi, həm də siyasi nüfuzunun artmasının göstəricisidir".

***Vidadi ORDAHALLI***

**Regional təcrid vəziyyətində yaşamaqda davam edən Ermənistanın iqtisadi müstəvidə üzləşdiyi problemlər bu ölkədə mövcud hakimiyyətə qarşı da etirazların yüksəlməsinə rəvac verməkdədir. Son bir ay ərzində sosial tələblərlə keçirilən çoxsaylı etiraz aksiyaları da qeyd edilənlərin real təsdiqi qismində çıxış edir. Ermənistanın baş naziri Nikol Paşinyan bu durumda getdikcə daha aydın şəkildə görür ki, ölkəsi işğal siyasətinə son qoymayana, təcrid vəziyyətindən çıxmayana qədər hansısa nailiyyətdən, inkişafdan söhbət gedə bilməz.**

# İrəvanın İranla Gürcüstan arasında qaz tranzit məntəqəsinə çevrilmək planı tam iflasa uğradı



Onun bu xüsusda atdığı addımlar isə nəticə vermir və bunu İranla bağlı son səfərin yekunları da aydın göstərdi.

Qeyd edək ki, Ermənistan baş nazirinin Tehrana səfərindən sonra İran qazının Ermənistana və Gürcüstana çatdırılması və oradan Avropa bazarlarına çıxarılacağı barədə müxtəlif fikirlər səslənir. Əsasən erməni siyasətçiləri və ermənipərəst qüvvələr hesab edirlər ki, İran qazı tezliklə Ermənistana və Gürcüstana çatdırıla bilər. Bu da regionda siyasi, ictimai, iqtisadi və digər münasibətlərin, əlaqələrin dəyişməsinə səbəb olacaq. Hesab edilir ki, bu hal Ermənistan;n Rusiyadan da enerji məsələsində asılı olmadığı görüntüsünü yaratmaq üçün İrəvana lazımdır. Lakin erməni ekspertlər belə etiraf edirlər ki, Paşinyan İranla enerji sahəsində heç bir ciddi müqavilə imzalamayıb. Digər tərəfdən, Ermənistanda enerji paylaşımı sisteminin 80 faizi Moskvanın əlində cəmləşib. Belə vəziyyətdə Moskva İran qazının Ermənistandan keçməklə Qara dənizə çıxarılmasına qətiyyən razı deyil. Ən azından ona görə ki, İrəvana bu xüsusda olan təzyiqlərinin əlindən çıxmasını istəmir.

Ekspertlərin də fikrincə, İran qazının Ermənistan və Gürcüstana, eləcə də bu ölkələrdən keçməklə Avropa bazarlarına çıxarılması inandırıcı deyil. Gürcü politoloq Tengiz Txilava hesab edir ki, İran öz təbii qazını Ermənistana və Gürcüstana ucuz qiymətə təklif edə bilər. Lakin bunun reallaşması üçün çox ciddi maneələr var: "İlk növbədə regionda artıq formalaşmış və söz sahibinə çevrilmiş oyunçuların maraqları nəzərə alınmalıdır. İran qazının Ermənistan və Gürcüstana satılması üçün ilk növbədə bu ölkələri "mavi yanacaqla" təmin edən ölkələrin razılığı lazımdır. Ermənistan təbii qazı Gürcüstan ərazisindən keçməklə Rusiyadan alır. Rusiya və ya ayrılıqda götürsək, dünya iqtisadi sistemində yerini tutmuş "Qazprom" buna razı olmaz. Ermənistan İran qazını almaq üçün "Qazprom"la müqaviləyə yenidən baxmalıdır. Bu isə həm də Rusiya-Ermənistan münasibətlərinə yenidən baxılması deməkdir. Ona görə də düşünürəm ki, "Qazprom" təbii qaz bazarını, eləcə də Ermənistanı itirməyə razı olmaz".

Digər politoloq Qela Vaşadze də hesab edir ki, İran qazının Ermənistana satılması real görünmür. Nəzərə alınmalıdır ki, Ermənistanın qaz nəqliyyat sisteminin sahibi "Qazprom-Ermənistan" şirkətidir. "Qazprom" isə heç vaxt rəqibini yaxına buraxmayacaq.

Politoloq Quram Marxuliya da İran qazının Ermənistan və Gürcüstana, eləcə də bu ölkələrin ərazisindən keçməklə birbaşa Avropaya çıxarılmasını mümkünsüz sayır. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi məsələni bilərəkdən qabartmaqla və tez-tez mətbuatda bununla bağlı yalan məlumatlar yaymaqla ictimaiyyəti aldadır: "Ermənistan hökuməti yaxşı başa düşür ki, onlara heç kim "Qazprom-Ermənistan"la olan müqaviləni pozmaq imkanı verməz. Digər tərəfdən yeni xətlər, kəmərlər çəkilməli, infrastruktur yaradılmalıdır. Bunun üçün isə külli miqdarda sərmayə lazımdır. Heç bir maliyyə institutu və ya dövlət risq edib belə bir sərmayəni yatırmaz".

Erməni ekspert Armen Manvelyan da İran qazının Ermənistan ərazisindən tranziti məsələsini xam xəyal adlandırıb. Energetika üzrə ekspert rəsmi İrəvanın İrandan təbii qaz idxalını artırmaq və bunun qarşılığında qonşu ölkəyə elektrik enerjisi vermək barədə vədlərinə münasibət bildirib. O qeyd edib ki, Ermənistanda öz tələbatını belə güclə ödəyəcək həcmdə elektrik enerjisi istehsal olunur və onun İrana nəqlinin artırılması real deyil. Onun sözlərinə görə, İrəvanla Tehran arasında energetika layihələrinin həyata keçirilməsi həddindən artıq çətin olacaq: "Hazırkı geosiyasi reallıqda İran təbii qazının Ermənistan ərazisindən tranzitindən danışmaq ciddi deyil. Birincisi, İranın özünün təbii qaz hasilatı ilə bağlı problemləri mövcuddur, ikincisi isə, Avropa İttifaqı Tehrandan qaz tədarükünə elə də maraq göstərmir. Avropanın qaz bazarı həddindən artıq yüklənib və İran qazının Ermənistan ərazisindən hansı ölkəyə nəql olunacağı da anlaşılan deyil". Ekspert əlavə edib ki, Ermənistan-İran yüksəkgərginlikli elektrik xəttinin tikintisində də problemlər yaranıb və bu səbəbdən İrəvan elektrik enerjisi qarşılığında Tehrandan əlavə qaz ala bilməyəcək. Bu xəttin tikintisi dəfələrlə təxirə salınıb və ötən il istifadəyə verilməsi nəzərdə tutulan obyektdə işlərin cəmi 20 faizi görülüb.

Gürcüstanla energetika sahəsində əməkdaşlığa gəldikdə isə, erməni ekspert vurğulayıb ki, Tiflis Vaşinqtonun reaksiyasına qarşı çox həssasdır və ABŞ-ın sanksiyaları fonunda energetika sahəsində İranla əməkdaşlıq etməyəcək: "Söhbət İran qazının Ermənistan ərazisindən Gürcüstana nəqlindən gedir və bu məsələ ətrafında tezliklə hər hansı razılaşma əldə ediləcəyi gözlənilmir".

Bütün bunlar fonunda bir daha aydın görünür ki, Ermənistanın regionda hansısa layihədə iştirakı uğursuzluğa məhkumdur və yalnız Azərbaycanın razılığı əsasında onun belə layihələrə qoşulması mümkündür. Bunun üçün İrəvan işğal siyasətinə son qoymalıdır.

***Tahir TAĞIYEV***

# ABŞ Dövlət Departamenti qondarma «DQR»-i rəsmən separatçı qurum elan etdi

*”Dünyanın bütün nüfuzlu qurumları və ölkələri artıq bu məsələdə konkret mövqe ortaya qoyurlar”*




## *Qabil Hüseynli: ”Qarşıda İrəvanı ciddi sınaq gözləyir”*

**ABŞ Dövlət Departamentinin Ermənistanla bağlı yeni hesabatında həmin ölkə açıq-aşkar separatçılığı dəstəkləməkdə və işğalçılıqda ittiham olunur. Hesabatdakı vacib bir məqama diqqət edək.**

Bildirilir ki, "separatçılar Ermənistanın dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik yeddi rayonun ərazisinin böyük bir hissəsinə nəzarət etməkdə davam edirlər".

Bu hesabatı şərh edən Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan bildirib ki, ABŞ Dövlət Departamentinin son hesabatında yeni heç nə yoxdur və bu təsbit hər il təkrar olunur. Ən ziddiyyətlisi ondan ibarətdir ki, rəsmi İrəvanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə danışıqlarda yeni format təklif etməsi fonunda XİN nümayəndəsi ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədri kimi "hazırkı format çərçivəsində" problemin dinc yolla həllinə səy göstərdiyini əlavə edib.

ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin də Ermənistanın danışıqların formatının dəyişdirilməsi ilə bağlı qeyri-konstruktiv mövqeyinin qəbuledilməz olduğunu bəyan etdikləri bir şəraitdə A.Naqdalyan ikiüzlü şəkildə qeyd edib ki, İrəvan "öz öhdəliklərini yerinə yetirir".

ABŞ Dövlət Departamentinin bu mövqeyini və Ermənistanın məsuliyyətdən yayınma cəhdlərini necə dəyərləndirmək olar?

Politoloq Qabil Hüseynli baki-xeber.com-a bildirdi ki, ABŞ Dövlət Departamentinin Ermənistanla bağlı hesabatındakı həmin məqam çox ciddidir: "Ermənistan rəsmi dairələri anlayırlar ki, hər tərəfdən dalana dirənirlər. Ona görə də bütün faktları təhrif etməyə, sanki deyilənlərin heç birinin onlara aid olmadığına dair rəy formalaşdırmağa çalışırlar. ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatındakı Ermənistana ünvanlanan iradlarla bağlı da onlar guya məsuliyyətdən yayınmaq yolunu tutdular. Ancaq bunlar fayda verən deyil. Avropa İttifaqının qəbul etdiyi son sənəddə Azərbaycanın ərazi bütövlüyü açıq-aşkar dəstəklənir. Demək olar ki, dünyanın bütün nüfuzlu qurumları və ölkələri artıq bu məsələdə konkret mövqe ortaya qoyurlar. Həmin konkretlik də ondan ibarətdir ki, Ermənistan öz adı ilə çağrılır. Yəni işğalçı və separatçılığı dəstəkləyən kimi. Bu baxımdan da ABŞ-ın rəsmi mövqeyində də belə məqamların olması sevindiricidir. Paşinyan vaxt qazanmağa çalışır, prosesləri uzatmaq istəyir. Eyni zamanda ölkədə iqtisadi dəyişikliklər həyata keçirməyi hədəfləyir. Ermənistan rəhbəri Dağlıq Qarabağ məsələsində güzəştə hazır deyil. Hər bir addımda danışıqların formatını dəyişməyə səy göstərir. Yeni formata qondarma Dağlıq Qarabağ məsələsini daxil etmək istəyir. Gələcəkdə də ehtimal olunan görüşlərdə nəticə olacağına inanmıram. Paşinyan Təhlükəsizlik Şurasının iclasını Xankəndində keçirməklə guya həm Azərbaycana qarşı müvafiq tədbirlər görməyi düşünürdü. Həm də Qarabağ ermənilərini bununla guya ürəkləndirməyə çalışırlar.

**Amma bu alınan məsələ deyil. Əsas məqam odur ki, İrəvan artıq vəziyyətin ciddiliyini başa düşüb. Ona görə də vəziyyətin ciddi olduğunu Qarabağ ermənilərinə də hiss etdirmək istəyirlər. Qarşıda İrəvanı ciddi sınaq gözləyir".**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ermənistanın "format pozuculuğunu" ifşa edən növbəti şansı məharətlə reallaşdırdı

**Azərbaycanın fəal diplomatik gedişləri nəticəsində Dağlıq Qarabağ münaqişəsinin həlli üçün danışıqlar formatının dəyişdirilməsi istiqamətində Ermənistan hakimiyyətinin cəhdlərinin iflasa uğramasından sonra konfliktlə bağlı proseslərin bundan sonra hansı istiqamətdə gedəcəyi indi xüsusi diqqət mərkəzində yer alır.**

Real vəziyyətin təhlili göstərir ki, Ermənistan, əslində format məsələsi ətrafında cərəyan edən hadisələr fonunda Azərbaycan qarşısında gücsüz olduğunu bir daha təsdiqləmiş oldu. Bakının istəklərinin əksinə olaraq İrəvan danışıqlar formatını dəyişdirə bilmədi.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev VII Qlobal Bakı Forumunda çıxışı zamanı İrəvanın münaqişənin həlli üzrə hazırkı danışıqlar formatının dəyişdirilməsi cəhdlərinə sərt cavab verib. Dövlət başçısı qeyd edib ki, Ermənistan hökumətinin danışıqlar formatını dəyişdirməyə cəhd etməsi qəbuledilməzdir. Dağlıq Qarabağ münaqişəsi və bu münaqişənin nəticələri barədə ətraflı danışan Azərbaycan Prezidenti bildirib ki, bu işğal beynəlxalq təşkilatların beynəlxalq hüquqa əsaslanan qətnamələrinin pozulması deməkdir və status-kvo qəbuledilməzdir, onun dəyişdirilməsi üçün isə Ermənistan Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmalıdır: "Biz görürük ki, Ermənistan hökuməti bu gün danışıqlar formatını dəyişdirməyə cəhd edir. Bu isə qəbuledilməzdir. Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bunu bəyan edirlər". İlham Əliyev bu formatın artıq uzun illərdir mövcud olduğunu bildirib və bunu dəyişdirmək cəhdini danışıqlar prosesini bloklamaq cəhdi kimi səciyyələndirib. Vurğulayıb ki, danışıqlar yalnız danışıqlar xatirinə aparılmamalıdır.

Azərbaycan tərəfinin yüksək səviyyədə səslənən bu mövqeyini dəyərləndirən erməni ekspert Ayk Xanumyan bildirib ki, bu gün Qarabağ danışıqları Bakının diqtə etdiyi şərtlər altında gedir və Nikol Paşinyan iqtidarı bunu nəzərə almalıdır: "Düzünü desək, mən təsəvvür etmirəm ki, Azərbaycan nə vaxtsa Ermənistanın istəkləri ilə razılaşacaq". Onun sözlərinə görə, bu gün tərəflər həllin hər hansısa variantından kifayət qədər uzaqdır: "Mən hesab edirəm ki, Azərbaycan Dağlıq Qarabağ rejiminin danışıqlarda iştirakına heç vaxt razılaşmayacaq. Məsələnin həlli danışıqlar yolu ilə mövcud deyil, çünki Azərbaycan və Ermənistanın mövqeləri kifayət qədər uzaqdır. Belə şərtlərdə məsələnin danışıqlar yolu ilə həlli ola bilməz".

Ermənistanın sabiq iqtidar partiyası olan Respublika Partiyasının sözçüsü Eduard Şarmazanov da eyni mövqeni bölüşərək bildirir ki, Bakı İrəvanın mövqelərini daha sürətlə sarsıdır və Paşinyan buna qarşı hansısa addımlar atmaqda acizlik nümayiş etdirir: "Aylar öncə Paşinyan parlamentdə çıxışlarında keçmiş hakimiyyətin yalnız torpaqların qaytarılması ilə bağlı danışıqlar apardığını və müvafiq sənədlər olduğunu bildirirdi. İndi danışıqlarda yeni sənədlər olmadığı məqamını nəzərə alaraq belə güman etmək olar ki, ya Paşinyan özü torpaq qaytarmağa hazırlaşır, ya da yalan danışır. Qoy özü qərar versin. Təhlükəsizlik Şurasının iclasındakı çıxışında Nikol şüurlu və ya dərk etmədən, şüursuz bir şəkildə Qarabağ erməniləri terminini istifadə edir. Mən bu terminin, xüsusilə danışıqlar və ya ictimai çıxışlar zamanı uğurlu formul olduğunu düşünmürəm. Paşinyan bəyan edirdi ki, Qarabağ münaqişəsinin nizamlanması prosesində onun proqramı nə birinci, nə ikinci, nə də üçüncü prezidentlərin strategiyası və konsepsiyasına oxşardır, onun erməniçilik lehinə proqram və konsepsiyası var. Hanı həmin konsepsiya, bəs deyirdi Qarabağ məsələsində erməniyönümlü proqramı var, bunu biz çıxışı zamanı eşidə bilmədik. Həmsədrlərin bəyanatından aydın oldu ki, onlar Paşinyanla münaqişəsinin nizamlanması üzrə yeni sənəd və ya paket müzakirə etməyə hazırlaşmır. Bakı istədiklərini əldə edir".

Ermənistanın sabiq baş naziri Vazgen Manukyan da vurğulayır ki, Qarabağ məsələsində status-kvonu qoruyub saxlamaq mümkün deyil. O qeyd edib ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra iqtidar qanadından olan bəzi nümayəndələr tərəfindən Qarabağ hərəkatı tarixinin bağlanması, yeni səhifənin açılması, hətta yeni səhifənin Qarabağ müharibəsindən daha önəmli olduğuna dair bəyanatlar verilib: "Bütün bunlar onu göstərirdi ki, yeni hakimiyyət Qarabağ məsuliyyətini boynuna götürmür. Lakin tədricən vəziyyət dəyişməyə başlayıb. Nikol Paşinyanın Təhlükəsizlik Şurasının son iclasındakı çıxışından məlum oldu ki, hakimiyyət Qarabağ məsələsi ilə bağlı məsuliyyəti öz boynuna götürməyə başlayıb. Paşinyan ardıcıl siyasət yürütməklə Qarabağdakı qurumu danışıqlar masasına çəkməyə cəhd göstərsə də, buna ATƏT-in Minsk Qrupu məlum bəyanatla faktiki olaraq cavab verib".

Manukyan bununla bağlı daha sonra qeyd edir: "Qarabağın danışıqlar masasına qaytarılması mümkün deyil. İlk növbədə ona görə ki, Azərbaycan Qarabağla danışıqlar masasında oturarsa, bu o deməkdir ki, Azərbaycan dolayı yolla bu və ya digər şəkildə Qarabağı tanıyır. Yəni Azərbaycan istənilən yolla bundan yayınacaq. Bunu yaxşı dərk edən Minsk Qrupu belə bir vəziyyəti danışıqlara maneə hesab edir. Minsk Qrupunun bizə münasibəti artıq dəyişir və Azərbaycan bundan yararlana bilər. İndiyədək danışıqların səmərəli olmadığı hesab olunurdu. Heç olmasa, zaman bizim xeyrimizə işləyirdi. Şərt olaraq irəli sürülən 3 prinsip - ərazi bütövlüyü, gücün tətbiq edilməməsi və öz müqəddəratını təyinetmə hüququ öz daxili ziddiyyətləri olan bir sənəd idi. Buna əsasən müharibənin qarşısını almaq mümkün olurdu. Amma Bakı vəziyyəti öz lehinə dəyişdirə bildi".

Azərbaycanın Qarabağ məsəəlsində istəklərinə tədricən yaxınlaşmaqda olduğunu bildirən Manukyan daha sonra qeyd edib: "Azərbaycan Qarabağ üzərində nəzarəti bərpa etmək üçün müharibəyə də əl ata bilər. Onlar zamanı müharibəyə hazırlıq məqsədilə istifadə edirdi. 2016-cı il aprel döyüşlərində yüzlərlə itki verdik, ordunun nöqsanlarını gördük. Aprel döyüşləri erməni ordusunda islahatlar aparılmasına dəstək verdi. Gələcəkdə müharibənin qarşısını almaq üçün bir yol qalır - ordunu gücləndirmək. Amma Azərbaycan daha sürətlə güclənir. Danışıqları davam etdirmək lazımdır. Tərəfdaş ölkələrlə, Rusiya, ABŞ və Avropa ölkələri ilə münasibətlər dərinləşdirilməli, əlaqələr möhkəmləndirilməli, yeni tərəfdaşlar cəlb edilməlidir. Lakin təəssüf ki, bu məsələdə də Azərbaycana uduzuruq".

Ümumiyyətlə, Ermənistanda hesab edirlər ki, Bakı beynəlxalq miqyasda uğurlu manevrləri ilə İrəvanı daha çətin duruma salmağı bacarıb. Minsk Qrupunun həmsədr dövlətlərinin son bəyanatları, bu günlərdə Avropa Parlamentinin qəbul etdiyi və Avropa Şurasına, Avropa Komissiyasının vitse-prezidentinə, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə nümayəndəsinə yolladığı rəy bunun daha bir təsdiqi sayılır. Avropa Parlamentinin son sənədi ümumiyyətlə Ermənistanda ciddi ajiotaja səbəb olub. Sənəddə deyilir: "Şərq tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə zərər vurmaq məqsədi daşıyan dezinformasiyanın yayılmasını və gələcək dezinformasiya təhdidlərini diqqətə almaq; insanlar arasında əlaqələrə diqqət yönəltməklə və icmalar səviyyəsində dayanıqlılıq mənbəyi olan mövcud vətəndaş cəmiyyəti şəbəkələri ilə işləməklə "Şərq tərəfdaşlığı" ölkələri ilə uzunmüddətli strateji yanaşmanın və qarşılıqlı fəaliyyət proqramının hazırlanmasına prioritet diqqət ayırmaq vacibdir". Bununla Azərbaycanın ərazi bütövlüyü bir daha təsbit olunub. Xatırladaq ki, 2018-ci il dekabrın 12-də Avropa Parlamenti "Avropa İttifaqının tərəfdaş ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə dəstəyə sadiqliyi"nin təsdiqləndiyi qətnamə qəbul etmişdi. Avropa Parlamentinin bu sənədi Azərbaycanın Ermənistan üzərində növbəti diplomatik qələbəsi sayılır. İrəvanda hesab edirlər ki, sayı artan belə sənədlər Azərbaycanın mövqelərini daha güclü hala gətirir.

Erməni şərhçi Akop Badalyan isə bildirir ki, bu vəziyyətdə Rusiyanın da getdikcə Azərbaycana meyllənməsi Qarabağ məsələsinəd İrəvan üçün böyük zərbədir: "İş o yerə çatıb ki, Rusiya Serj Sarkisyan, Robert Köçəryan və "Lazarev klubu" vasitəsilə Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimi Nikol Paşinyan hakimiyyətindən ayırmağa çalışır". Badalyan keçmiş prezident Serj Sarkisyanın Xankəndiyə getməsi və separatçı rejimin "rəhbəri" Bako Saakyanla danışıqlar aparması haqqında məlumatı xatırladaraq yazır ki, məqsəd ərazilərin Rusiya ssenarisinə uyğun qaytarılmasıdır. Söhbət ilkin mərhələdə 5 rayonun qaytarılmasını nəzərdə tutan ssenaridən gedir.

Maraqlıdır ki, ermənipərəst mövqeyi ilə tanınan Konstantin Zatulinin yaratdığı "Lazarev klubu"nun Moskvada keçirilən iclasında da rayonların qaytarılması məsələsi müzakirə edilmişdi. Hərçənd, Zatulin həmin iclasa Qarabağ separatçılarının "nümayəndəsi"ni də dəvət etmişdi və bu, dəvət separatçılara dəstək mənzərəsini yaradırdı. Lakin iclasda ərazilərin qaytarılması məsələsinin müzakirəsi Rusiyanın prosesi Nikol Paşinyanla deyil, "Qarabağ klanı"nın uzantısı olan separatçılarla həll etməyə çalışdığı versiyasını yaratdı. Badalyan bu ssenarini "Qarabağ tələsi" olaraq təqdim edir: "Görünür, ruslar münaqişənin öz ssenariləri üzrə həllinə çalışırlar və bunun üçün separatçılarla Paşinyan hakimiyyəti arasındakı uçurumdan istifadə edirlər. Çünki Paşinyan danışıqların tormozlanması ilə nəticələnəcək "format dəyişikliyi" tezisini irəli sürür, bu isə rusların münaqişəni həll etmək planlarını təxirə salır. Ruslar da məhz Xankəndidəki separatçılardan istifadə edərək, Paşinyanı həll variantına razılaşmaq faktı qarşısında qoymaq istəyirlər".

Hesab edilir ki, hadisələrin bu səpkidə inkişafı Qarabağ münaqişəsinin daha böyük sürətlə Azərbaycanın lehinə həll edilməsinə imkan verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Erməni işğalında qalan muzeylərimiz...

**Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü nəticəsində mədəni dəyərlərimizə, mədəniyyət obyektlərimizə də ciddi ziyan dəyib. İşğal altında olan şəhər və rayonlarımızda mövcud olan muzeylər ermənilər tərəfindən dağıdılıb, sərvətləri isə "erməni mədəniyyətinin nümunəsi" kimi Ermənistan muzeylərinə daşınıb.**

Məlumdur ki, muzeylərimizdə saxlanan nadir rəsm əsərlərinin, xalçaların, digər toxuculuq məmulatlarının, qədim qabların, müxtəlif növ əşyaların bir qismi həm Ermənistan muzeylərinə daşınıb, bir qismi isə xarici bazarlarda baha qiymətlərə satılıb.

Ermənilərin işğal altında saxladıqları ərazilərimizdə mövcud olan maddi-mədəni irsimizin indiyədək tam olaraq siyahıya alınmaması narahatlıq doğurur. Ötən illər ərzində nə işğal altında qalan maddi-mədəni irsimizin tərkib hissəsi sayılan muzeylərin siyahısı, nə də eksponat fondu haqqında dəqiq bilgilərlə rast gəlirik. Ekspertlərin verdiyi məlumata görə, aparılan araşdırmalar zamanı işğal altında olan muzeylərin sayı gah 16, gah da 22 göstərilir. Eksponat fondunun həcmi isə 40 min-100 minarası olduğu deyilir. Əslində isə dərindən araşdırıqda daha böyük rəqəmlərin olduğu məlum olur. Saytın muzeylər bölümündə verilən məlumatlar bir-birini tamamlamır. Rəsmi rəqəmlərə görə, ümumilikdə, 22 muzey və 40 mindən artıq muzey eksponatı erməni işğalı altında qalıb.

Ekspertlər bildirirlər ki, işğal altında qalan muzeylərimizdən Zəngilan rayonunda fəaliyyət göstərmiş Daş Heykəllər və Xalqlar Dostluğu muzeyi, Laçın rayonundakı Sarı Aşığın xatirə muzeyi, Qubadlı Tarix-diyarşünaslıq muzeyi, Füzuli Tarix-diyarşünaslıq muzeyi və Bünyad Sərdarovun ev-muzeyi, Cəbrayıl Tarix-diyarşünaslıq muzeyi və Cəmil Əhmədovun ev-muzeyi, Ağdam Tarix-diyarşünaslıq, Rahib Məmmədov adına Döyüş şöhrəti muzeyi, Qurban Primovun ev-muzeyi və Çörək muzeyi, habelə Şuşa şəhərinin Tarixi muzeyi və Ü.Hacıbəyovun Şuşadakı ev-muzeyi, o cümlədən Xankəndi Tarix-diyarşünaslıq muzeyi və Xocalı (Yaloba kənd) Tarix-diyarşünaslıq muzeylərinin adlarını qeyd edə bilərik.

Muzeyşünasların verdiyi bilgiyə görə, Zəngilan, Kəlbəcər, Laçın, Ağdərə tarix diyarşünaslıq muzeyləri, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyi, Xocavənd ərazisində olan Hadrut və Martuni rayon Taix-diyarşünslıq muzeyi, Şuşada Bülbülün ev-muzeyi və Mir Mövsüm Nəvvabın xatirə muzeyi, Şuşa qalasının Gəncə divarının yanında Daş Muzeyi də düşmən tapdağındadır və onların hazırkı taleyi haqqında heç bir məlumat yoxdur. Haqqında hər hansı bir məlumata saytda rast gəlmədik. Ekspertlər hesab edirlər ki, işğal altında olan bütün muzeylərimizlə bağlı internet resursları hazırlanmalıdır.

Qeyd edilir ki, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı çox zəngin olub. Bildirilənə görə, 1988-ci ildən başlayaraq, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunan Qarabağ və ətraf bölgələrin tarixi-mədəni dəyərləri düşmən tərəfindən məhv edilib, talan olunub, nəticədə milli və beynəlxalq əhəmiyyətə malik 100 mindən çox mədəniyyət abidəsi, o cümlədən, 22 muzey, 4 rəsm qalereyası, mədəniyyət və incəsənət əşyaları işğal olunmuş ərazidə qalıb və onların taleyi indiyə qədər məlum deyil.

Dövlət Xalça Muzeyindən verilən məlumata görə, 1994-cü ilin yanvar ayında Beynəlxalq Muzeylər Şurası (ICOM) Azərbaycan Milli Komitəsi UNESCO-nun baş direktoru cənab Frederiko Mayora və Beynəlxalq Muzeylər Şurasının baş katibi xanım Elizabet de Porta "Azərbaycan milli sərvətlərinin qorunması üçün" müraciət edib, 1996-cı ildə UNESCO Azərbaycanın işğal olunmuş ərazilərində muzey obyektlərinə həsr olunan "Azərbaycanın itirilmiş mədəni dəyərləri" adlı liflet nəşr edib. Müharibənin törətdiyi acı fəsadlardan biri də Azərbaycan Xalça Muzeyi Şuşa filialının dağılması olub. Qeyd edilənə görə, filial 1987-ci ildə Şuşada - Mehmandarovun köhnə malikanəsində açılıb. Filialın missiyası dekorativ-tətbiqi incənətimiz olan qədim tarixə malik Qarabağ xalaçaçılıq məktəbinin ənənələrinin qorunması, öyrənilməsi və yaşadılmasına xidmət edirdi. Xalça Muzeyinin yerli və ənənəvi sənət növlərinin inkişafı və təbliğinə xidmət edən filialları ölkəmizin başqa bölgələrində də açılıb.

1992-ci ilin mayında erməni silahlı qüvvələri tərəfindən şəhərin ələ keçirilməsi nəticəsində Şuşa filialının kolleksiyası Bakıya - Azərbaycan Xalça Muzeyinə köçürülür. Şuşa şöbəsinin işğaldan xilas edilmiş eksponatları bu gün Azərbaycan Xalça Muzeyinin ekspozisiyasında nümayiş olunur.

Şuşa filialı öz kolleksiyasını xilas etməsinə baxmayaraq, o, Qarabağ mədəniyyətinin və incəsənətinin qorunması və təbliğatı rolunu, demək olar, itirdi. Şuşanın işğal olunması nəticəsində muzeydə qorunub saxlanan qeyri-maddi mədəni dəyərlər, həmçinin, Şuşa mədəni mühiti məhv edildi, ənənəvi el sənəti ustaları yurdlarından uzaq düşdü. Mükəmməl Qarabağ mədəniyyəti öz kökü üzərində yaşamaqdan və inkişaf etdirilməkdən məhrum edildi. Belə bir şəraitdə Şuşa filialı özünəməxsus Qarabağ ənənəsini yaşatmaq və inkişaf etdirmək imkanını itirib.

İşğal altında qalan Ağdam Çörək muzeyi də ermənilər tərəfindən məhv edilib. Məlumatlara görə, Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşüb. Birinci mərmi üçüncü sərgi zalına düşsə də, partlamayıb. İkinci mərmi isə 1992-ci ilin avqust ayının 12-də, saat 16:40 radələrində Əsgəran rayonunun Xanabad və Naxçıvanik kəndi istiqamətindən atılan zaman muzeyə düşərək, onu tamamilə məhv edib. Yanğını söndürməyə cəhd göstərilsə də, muzeyi xilas etmək mümkün olmayıb və nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv olub.

Ağdam şəhərində Çörək muzeyinin xarabalıqları bu gün də qalır. Muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da var idi. Keçmiş SSRİ-nin paytaxt şəhərlərində bişirilən 300-dən artıq çörək nümunəsi muzeydə sərgilənirdi. Muzeyin eksponat fondunun yaradılmasında akademik İmam Mustafayevin, iqtisad elmləri doktoru və professor Əbülfəz Qasımovun və bir çox ziyalının müstəsna rolu olub.

Muzey eksponatlarının ən qədimi - eramızdan əvvəl VII minilliyə aid olan daşlaşmış buğda dənələri diqqəti daha çox çəkirdi.



İşğal altında olan Zəngilan rayonunda yerləşən Daş Heykəllər Muzeyi də ermənilər tərəfindən qəsb edilib. 1989-cu ildə fəaliyyətə başlayan muzeyin yaranması o dövrdə Zəngilan Xalq Deputatları Soveti İcraiyyə Komitəsində Mədəniyyət şöbəsinin müdiri işləmiş Camal Sultanovun təklifi ilə həyata keçirilib. Şəhərin mərkəzindən yeddi kilometr aralıda yerləşən muzey fəaliyyətə başlayandan bir il sonra ayrıca subyekt kimi rəsmiləşdirilib və muzeyə üç ştat vahidi verilib.

Muzey rayondan Bakıya gedən şosse yolunun sol tərəfində - ətrafdan xeyli hündür bir yerdə, "Ağ oyuq" təpəsində yerləşirdi. Həmin hündür təpədən baxanda, təxminən altmış kilometrlik ərazi - bir tərəfdən Naxçıvan Muxtar Respublikasının Ordubad şəhəri, digər tərəfdən isə Qarabağın hündür dağları görünürdü.

Mütəxəssislər bildirirlər ki, təpədə olan qədim daşa el arasında "Koroğlu daşı" deyərdilər. Daşın yan hissəsində oyuq olduğundan, ona "Ağ oyuq"da deyərdilər. Həmin oyuğa yağ töküb yandırıblar və bundan da qədim dövrlərdə mayak kimi istifadə edildiyi deyilir. Bu mayak o vaxtlar Cənubi Azərbaycandan gəlib, Araz çayının üzərindəki Xudafərin körpüsündən keçən, Həkəri çayının uzununa Şuşa qalasına gedən karvanlar üçün yol göstəricisi sayılırmış.

Muzeyin direktoru Çərkəz Nəsirlinin dediklərindən: "Şamlı adlanan kəndin yaxınlığında təpənin üzərində qədim daşlar tapılmışdı. Bu daşların bir çoxunda insan şəkilləri çəkilmiş, bəziləri isə insan heykəli kimi yonulmuşdu. El arasında həmin əraziyə "Dərvişim" deyirdilər. Burada dərvişə oxşayan üç heykəl vardı. Əfsanəyə görə, dərvişlər harasa gedərkən, yolüstü bu yerlərdə oturub dincəlmişlər. Həmin yer o qədər onların xoşuna gəlir, Allaha dua edirlər ki, onları daşa döndərib burada saxlasın. Görünür, əməlisaleh olduqlarından, Allah da onların sözünü eşidib dərvişləri daş heykəllərə döndərir. Bununla da həmin daş heykəllər olan məkana "Dərvişim" deməyə başlayırlar. Bu bir rəvayət olsa da, müəyyən mənada, həqiqətə əsaslanan məqamları da var…".

Araşdırmaçı Vüqar Tofiqlinin qeyd etdiyinə görə, ötən əsrin 80-ci illərində həmin ərazidə salınan üzüm bağlarında çalışanlar üçün ikiotaqlı istirahət binası inşa edilir. Lakin istirahət evi istifadəsiz qaldığından, 1990-cı ildən muzey həmin binada fəaliyyətə başlayır. Binanın içində rayonun tarixinə aid qədim abidələrin şəkillərindən ibarət kolleksiyalar yaradılır. Burada 100-ə yaxın orijinal tarixi şəkillər saxlanır, həyətində isə daş heykəllər sərgilənirdi. "Koroğlu daşı" deyilən daşın hündürlüyü 2 metr, çəkisi isə təqribən 1,5 ton idi. Eni 90 sm ölçüdə olmaqla, kvadrat şəklində yonulmuş daşda qədim türk dilinə aid yazılar var idi. Bəzi versiyalara görə, bu yazılar Orxon-Yenisey əlifbası ilə yazılıbmış. Bəlkə də bu səbəbdən həmin düzənlik əraziyə "Yazı düzü" də deyərmişlər.

Daş Heykəllər Muzeyində Zəngilan ərazisində tapılan qədim qoç, qoyun, şir, at heykəlləri, habelə müxtəlif fil fiqurları, bir sözlə, müxtəlif dövrlərə aid digər daş abidələr sərgilənirdi. Bu abidələr təqribən XIV-XVI əsrləri əhatə edirdi. Burada açıq səma altında olan 20-dən çox eksponat var idi.

Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğal edilməsi nəticəsində muzeyin binası və yüz əllidən artıq eksponat məhv edilib və aparılması mümkün olanları isə daşınıb.

1993-cü il oktyabrın 28-dən Zəngilan Daş Heykəllər Muzeyi erməni işğalı altındadır" - deyə o qeyd edir.

Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılovun bildirdiyinə görə, ermənilərin muzeylərimizə qarşı vandalizm hərəkətlərinə beynəlxalq hüquq müstəvisində qiymət verilməlidir. "Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, erməni işğalı altında olan yurd yerlərimizdə qalan muzeylərimizdən ermənilər 100 mindən çox milli-mədəni irsimizə aid miraslarımızı (eksponatları) 1992-93-cü illərdə qarət edərək qənimət kimi Ermənistana apardılar" - deyə F.İsmayılov bildirir.

Ermənilərin işğal altında saxladıqları ərazilərimizdə yerləşən muzeylərimizin taleyi bizi narahat etsə də, aidiyyəti beynəlxalq qurumları narahat etmir. Hələ indiyə qədər Azərbaycanın işğal altındakı ərazilərində qalan muzeylərlə bağlı beynəlxalq qurumlar heç bir araşdırma aparmayıblar. Bu da ondan xəbər verir ki, bütün dünya erməni vandalizminə göz yumur.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Naxçıvan xanlarına "İrəvana xəyanət etdiniz" ittihamı - teleaparıcı Elçin Əlibəyliyə etiraz var...

**Bu günlərdə daimi oxucularımızdan biri bizimlə əlaqə saxlayaraq bildirdi ki, "El bizim, sirr bizim" proqramının müəllifi Elçin Əlibəyli sözügedən verilişdə qədim Azərbaycan şəhəri İrəvanın Çar Rusiyası tərəfindən işğal edilməsi haqqında danışıb. Oxucunun verdiyi məlumata görə, E.Əlibəyli verilişdə deyib ki, İrəvan Naxçıvan xanı Kəlbəli xanın İrəvan xanı Hüseynəli xana xəyanəti nəticəsində Çar Rusiyası tərəfindən qəsb edilib.**

***Elçin Əlibəyli:*** *"Məhz Paskeviç Kəlbəli xanla danışıqlardan sonra arxa cinahdan hücuma keçə bilib və İrəvan qalasını zəbt edib"*

***Cəbi Bəhramov:*** *"İrəvan qalası Naxçıvan xanlarının deyil, təbrizli axund Mir Fəttah Təbatəbainin satqınlığı nəticəsində ruslar tərəfindən işğal olunub"*



Məlum olduğu kimi, hər iki tarixi şəxsiyyət İrəvanın işğalından illər əvvəl dünyasını dəyişib. İrəvan xanı Hüseynəli xan Ziyadoğlu-Qacarın 1783-cü ilin 9 noyabr tarixində xəstələnərək dünyasını dəyişdiyi məlumdur, Kəlbalı xanın vəfatı haqqında isə mənbələrdə dəqiq məlumat yoxdur.

Məlumat üçün bildirək ki, 1804-ü ildə general Sisianov, 1808-i ildə general Qudoviç İrəvan qalasını almağa cəhd ediblər, lakin buna müvəffəq olmayıblar. Nəhayət, 1826-1828-ci illər Rusiya-Qacar müharibəsi zamanı, daha dəqiqi, 1827-ci il oktyabrın 1-də rus generalı Paskeviçin komandanlığı altında rus qoşunları şəhəri işğal edib və "Türkmənçay" müqaviləsi ilə İrəvan şəhəri İrəvan xanlığının daxilində zorla Rusiyaya birləşdirilib.

E.Əlibəylinin bu məsələdə tarixi təhrif etməsi həqiqətən də təəccübümüzə səbəb oldu. Onunla əlaqə saxladıqda bildirdi ki, çıxışında konkret olaraq heç kəsin adını çəkməyib, tarixi sənədlərə istinadən İrəvan xanlığının Naxçıvan xanlarının xəyanəti nəticəsində rus işğalına məruz qaldığını deyib. "Naxçıvan xanı II Kəlbəli xan ruslarla ittifaqa girib və müvafiq şərtlər əsasında icazə verib ki, rus ordusu arxadan İrəvan qalasına hücum etsin. Fikir verin, ona görə də Kəlbəli xanın özü də general rütbəsi almışdı, ondan sonra bütün Naxçıvanskilər general rütbəsi alıb. İrəvan xanlığı arxadan zərbə gözləmirdi, həmin zərbə nəticəsində İrəvan qalası 1827-ci ildə çökdü. Bilmirəm, sonra İrəvan xanının aqibəti necə olub? Bir varianta görə, həmin döyüşdə onun özü də öldürülüb, digər məlumatda isə onlar qaça biliblər. İrəvan qalasının alınması zamanı orada çox qanlı döyüşlər gedib. Çar ordusu dəfələrlə qalaya girmək istəyib, lakin müqavimət nəticəsində girə bilməyib. Nəhayət, Paskeviç buna nail olub. Məhz Paskeviç Kəlbəli xanla danışıqlardan sonra arxa cinahdan hücuma keçə bilib və İrəvan qalasını zəbt edib. Mənim dediklərim yeni fikir deyil, bütün tarix kitablarında var. Bu, İrəvan xanlığı haqqında kitabda da yer alıb. Səhv etmirəmsə, bu kitabın müəllifi Urfan Əliyevdir. Mən həmin çıxışımda konkret olaraq heç bir xanın adını çəkməmişəm, xanlıqların adını çəkmişəm. Mən siyasi tarixdə baş verən hadisənin necə baş verdiyindən danışmışam. Azərbaycan xanları haqqında baş verənləri siz özünüz də yaxşı bilirsiniz. Cavad xanı da Qarabağ xanı tək qoyub.





28 il İrəvan və Naxçıvan ruslara çox ciddi müqavimət göstərib. Mən "Türkmənçay" müqaviləsindən əvvəli danışıram. 1827-ci ildə İrəvan qalası alındı, 1828-ci ilin fevral ayında da "Türkmənçay" müqaviləsi bağlandı. Bununla da müharibə bitdi" - deyə E.Əlibəyli bildirdi.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov isə "Bakı-Xəbər"ə bildirdi ki, çox zaman jurnalistlər, filoloqlar tarixi mövzulara baş vurur və tarixi hadisələri təhrif edirlər.** C.Bəhramovun sözlərinə görə, Naxçıvan xanları heç bir vaxt İrəvan xanlığına xəyanət etməyib və İrəvan qalasının işğal edilməsində bu xanlığın heç bir nümayəndəsinin əli olmayıb. "İrəvan qalasının Naxçıvan xanlarının ruslarla sövdələşməsi nəticəsində işğal olunması iddiası həqiqətə uyğun deyil. Naxçıvan xanları İrəvan xanlarına heç vaxt xəyanət etməyib və bu barədə deyilənlər cəfəngiyyatdır. İrəvan qalası Naxçıvan xanlarının deyil, təbrizli axund Mir Fəttah Təbatəbainin satqınlığı nəticəsində ruslar tərəfindən işğal olunub. Təbatəbainin xəyanətindən sonra Paskeviç İrəvan qalasını işğal edib, sonra isə onlar Təbrizə daxil olublar. Təbatəbai qoşunun İrəvanı işğal etməsi üçün bütün sirləri ruslara satmışdı. O cümlədən də İrəvanın və Naxçıvanın tutulmasında həmin o xəyanətkarın əli olub. Sonra bu məsələni Abbas Mirzə bilib və 7 mart tarixində onu ölkədən qovub.

O da Şimali Azərbaycana gəlib, buradan da onu I Nikolayın yanına aparıblar. O, I Nikolaydan 22 kənd, 4500 rubl həcmində təqaüd və mühafizəçi istəyib. Ona Şamaxıdan 6 kənd veriblər. Xəyanətkar Təbatəbainin, son 200 il ərzində Azərbaycana xəyanət edən bütün satqınların adlarını yazıb ölkənin hər yerində yaymaq lazımdır ki, xalq bu xəyanətkarların adlarını bilsin" - deyə C.Bəhramov bildirdi.

***İradə SARIYEVA***

# Elşad Abdullayev yeni müəmmalar burulğanında...



**Bir vaxtlar sosial şəbəkələr üzərindən yaydığı qalmaqallı videolarla gündəmə gələn və populyarlaşan Beynəlxalq Universitetin sabiq rektoru Elşad Abdullayevlə bağlı maraqlı proseslərin getdiyinin şahidi oluruq.**

Hazırda Fransada yaşayan Elşad Abdullayevin sahibi olduğu "Facebook" profilinin bağlandığı ilə bağlı iddia ortaya qoyulub. Biz bu yöndə araşdırma apardıqda məlum oldu ki, doğrudan da Elşad Abdullayevə məxsus olan və öz adı ilə qeydiyyatdan keçdiyi köhnə profili fəaliyyət göstərmir. Xaricdə yaşayan mühacirlər və bir vaxtlar Elşad Abdullayevlə silahdaş olanların özləri iddia edirlər ki, sabiq rektorun profilinin bağlanmasının maraqlı səbəbi var. İddia olunur ki, "Facebook" onun Rusiya təhlükəsizlik xidmətlərilə əlaqəli olduğunu əsas gətirərək Elşad Abdullayev adlı profilini ləğv edib. Maraqlıdır ki, o bununla bağlı səs-küy salmayıb. Elə həmin mühacirlər iddia edirlər ki, Elşad Abdullayev Azərbaycan rəhbərliyinin adına tövbə və üzrxahlıq məktubu yazaraq, Respublika Prokurorluğuna göndərib. O, əməllərindən peşman olduğunu, indiyə qədər etdiklərini müxalifətin təzyiqilə etdiyini və bundan sonra hakimiyyətə xidmət edəcəyinə söz verir, bağışlanmağını, haqqındakı cinayət işinin bağlanmasını istəyir. Ən maraqlı məqam isə bundan ibarətdir ki, Elşad Abdullayevin bağlanmayan və fəaliyyət göstərən sosial şəbəkə hesablarında da maraqlı proseslər yaşanır. Belə ki, ona məxsus olan "Yotube" kanalında araşdırma apardıqda gördük ki, Elşad Abdullayevin Azərbaycanla bağlı yayımladığı bir çox qalmaqalı videoları hesabdan silinib. Çox güman ki, Elşad Abdullayev bu jestləri bağışlanması üçün edir.

Hüquqşünaslar hesab edirlər ki, Elşad Abdullayev barəsində Azərbaycanda cinayət işi var və gəlib həmin ittihamlara cavab verməlidir. Bildirilir ki, onun atdığı addımlar işində yüngülləşdirici hal kimi nəzərə alına bilər. Necə deyərlər tövbə qapısı hər zaman açıqdır...

***Məhəmmədəli QƏRİBLİ***

# Ağdərədə qəhrəmancasına həlak olmuş Daxili Qoşun əsgərlərimizə Bakıda "Qardaşlıq abidəsi" qoyuldu...



**Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüzlərlə hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Şəhid hərbi qulluqçularımız respublikamızın paytaxtı və bölgələrindəki şəhidlər xiyabanları, habelə ailələrinin yaşadıqları ünvanların yaxınlığında yerləşən qəbiristanlıqlarda dəfn olunublar.**

Bakıda "Əbədi məşəl"in alovlandığı, dövlət ziyarət protokoluna daxil olan, tarixi məkan kimi tanınan Şəhidlər Xiyabanında istiqlalımız və torpaqlarımızın toxunulmazlığı naminə həyatını qurban vermiş yüzlərlə şəhidimiz torpağa tapşırılıb. Burada yeganə qardaşlıq məzarı da mövcuddur ki, Daxili Qoşunların şəhid hərbi qulluqçularına aiddir. Belə ki, 1992-ci ilin iyul ayının 19-da Ağdərə rayonunun Aterk kəndinin (hazırda Kəlbəcər rayonunun Həsənriz kəndi, işğal altındadır) müdafiəsi uğrunda döyüşdə Daxili Qoşunların "N" saylı hərbi hissəsinin onlarla hərbi qulluqçusu cəsurluq göstərərək son nəfəsinədək vuruşub və həlak olub. Onların bir qisminin düşmən tərəfindən yandırılmış və torpağa gömülmüş meyitlərinin qalıqları döyüş gedən ərazi işğaldan azad edilərək geri qaytarıldıqdan sonra tapılaraq ön cəbhədən paytaxta gətirilib. Şəhidlərimizin meyitlərinin dəhşətli vəziyyəti onların çoxunun kimliyini müəyyən etməyə imkan verməyib. Beləliklə, Aterk (Həsənriz) şəhidlərinin meyitlərinin qalıqlarının qardaşlıq məzarında dəfn olunması qərara alınıb.

1992-ci il iyul ayının 30-da Şəhidlər Xiyabanında Aterk (Həsənriz) şəhidlərinin dəfn mərasimi keçirilib. Dəfn mərasimində Daxili Qoşunların Komandanlığını təmsil edən vəzifəli şəxslər, şəxsi heyət, şəhidlərin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

O vaxt Aterk (Həsənriz) kəndində müvafiq abidə kompleksinin yaradılmasına dair sərəncam verilib. Müharibə gerçəkliyi və göstərilən ərazinin yenidən işğala məruz qalması səbəbindən bu sərəncam yerinə yetirilməyib.

Bir neçə il sonra qeyd olunan qardaşlıq məzarının üzərində 38 nəfər şəhidin adı həkk olunan abidə yaradılıb. Həmin adlar Aterk (Həsənriz) döyüşündə həlak olduğu və itkin düşdüyü ehtimal edilən hərbi qulluqçuların ümumi siyahısından götürülüb. Ancaq sonrakı dövrdə aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, adları məzarüstü abidədə həkk edilən 38 nəfər hərbi qulluqçudan 2 nəfər sağdır. Həmin 2 nəfər hərbi qulluqçu Aterk (Həsənriz) döyüşü zamanı düşmən tərəfindən əsir götürülüb və sonradan geri qaytarılıb. Beləliklə, abidənin yeniləşdirilməsi zərurəti yaranıb. Bununla yanaşı, ötən illər ərzində abidənin və məzarüstü lövhənin köhnəlməsi, onun müasir tələblərə cavab verməməsi nəzərə alınaraq, Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov tərəfindən yeni abidənin yaradılması təşəbbüsü irəli sürülüb. Daxili işlər naziri, general-polkovnik cənab Ramil Usubov bu təşəbbüsü dəstəkləyərək, müvafiq işlərin görülməsinə göstəriş verib. Bununla da Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılaraq, Daxili Qoşunların şəhid hərbi qulluqçularının qardaşlıq məzarı ilə bağlı yeni layihə icra olunub. Qardaşlıq məzarı üzərində əvvəlkindən öz möhtəşəm quruluşuna və memarlıq elementlərinə görə fərqlənən müasir memorial abidə kompleksi yaradılıb.

İstedadlı və peşəkar memar Orxan Abdullayev bu layihənin müəllifidir. O, bu günədək Türkiyə və Azərbaycanda memarlıq, dizayn sahələri üzrə çalışıb.

Memorial abidə kompleksi ümumi sahəsi 26 kvadratmetr olan ərazidə layihələndirilib və mərmər platforma üzərində yerləşdirilib. Platforma 5 sm qalınlığındadır. Kompleks mərmər platforma üzərinə inşa olunan ikihissəli asimmetrik mərmər lövhədən və bürünc materialından hazırlanmış 8 guşəli ulduzdan ibarətdir. İkihissəli asimmetrik lövhə ağ və qara rəngli mərmərlərdən işlənib. Lövhələrin üstündə Daxili Qoşunların emblemi və bürünc hərflərlə Aterk (Həsənriz) döyüşü haqqında məlumat həkk edilib. Həmçinin, abidənin önündə ziyarətçilər üçün mərmər meydançа da düzəldilib. Ziyarət meydançası və abidə lövhələrinin inşa olunduğu platforma 20 sm enində qara rəngli mərmərlə haşiyələndirilib. Kompleksin ətrafında abadlıq işləri də görülüb.

Bu mühüm layihənin həyata keçirilməsi şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə xidmət edir və Daxili Qoşunların şərəfli döyüş ənənələrinin təbliği, cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün də ictimai əhəmiyyətə malikdir.

*Yalçın QAYA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ASLANOV QASIM İSA oğlu**

28 avqust 1961-ci ildə



Azərbaycan Respublikasının Goranboy rayonunda doğulmuşdur. İtkin düşənə qədər Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində yaşamışdır. Mülki şəxs. Aslanov Qasım İsa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 2 fevral 1992-ci ildə Ağdərə rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Qasım İsa oğlu 2 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələri Ağdərə rayonunu işğal edən zaman Talış kəndi ərazisində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanov Qasım İsa oğlunun sonraki taleyi barədə məlumat yoxdur.

**ASLANOV MƏHƏMMƏDƏLİ PƏNAH oğlu**

1 dekabr 1958-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Gəncə şəhərinin Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Məhəmmədəli Pənah oğlu Azərbaycan



Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 17 aprel 1994-cü il tarixində Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Məhəmmədəli Pənah oğlu 17 aprel 1994-cü il tarixində Ağdərə rayonunun Talış kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Məhəmmədəli Pənah oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV MƏMMƏD HÜSEYN oğlu**



1941-ci ildə Azərbaycan Respublikasının Şuşa rayonunda doğulmuşdur. İtkin düşənə qədər Şuşa rayon mərkəzində yaşamışdır. Mülki şəxs. Aslanov Məmməd Hüseyn oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 8 may 1992-ci ildə Şuşa rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Məmməd Hüseyn oğlu 8 may 1992-ci il tarixində erməni silahlı birləşmələri Şuşa rayonu işğal edən zaman naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanov Məmməd Hüseyn oğlunun sonraki taleyi barədə məlumat yoxdur.

**ASLANOV RAUF YOLÇU oğlu**

18 iyun 1971-ci ildə Azərbaycan Respublikasının Goranboy rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Goranboy rayonunun Qaramusalı kəndində yaşamışdır. Goranboy RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Rauf Yolçu oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı 12 oktyabr



1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Rauf Yolçu oğlu 12 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Fingə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Rauf Yolçu oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Azərbaycanda bəzi istehsalçı şirkətlərin ayrı-ayrı şairlərin şeirlərinin mətnlərini təhrif edərək onlardan məhsullarının reklamında istifadə etməsi sanki bir ənənəyə çevrilib. Onlar elə zənn edirlər ki, bu hərəkətləri cəmiyyətdə normal qarşılanır. Əslində isə bu, reklam mətnlərini dinləyənlərdə narazılıq və qıcıq yaradır.**

# "AZ-GRANATA" Nəsiminin klassik qəzəlinin sözlərini necə bərbad günə saldı...




***Qiymət Məhərrəmli:** ...şairin ruhunun incidilməsidir"*

***Əqli Mülkiyyət Agentliyi:** "Vita 1000" meyvə şirələrinin qablaşdırıldığı qutuların üzərində "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" formasında yazılması məşhur kəlamın mənasının və təyinatının dəyişdirilməsi yolu ilə təhrif edilməsinə səbəb olub"*

*"AZ-GRANATA" MMC-dən isə "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" sloqanı altında etiket sifariş verilmədiyi və həmin ifadə altında meyvə şirəsi istehsal edilmədiyi bildirilir*

Son günlər müxtəlif kütləvi informasiya vasitələrində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" qəzəlinin ilk misrasının təhrif olunaraq "AZ-GRANATA" MMC-nin istehsal etdiyi "Vita 1000" meyvə şirələrinin qablaşdırıldığı qutuların üzərində "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" formasında yazılması məsələsi müzakirə edilir. Dahi şairin məşhur qəzəlinin ilk misrasının bu şəkildə təhrif edilməsi ədəbiyyatşünasların da ciddi narazılığına səbəb olub.

**Filologiya üzrə fələfə doktoru Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə bildirdi ki, dahi Nəsiminin az qala hər kəs tərəfindən əzbər söylənən "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misrasının bu şəkildə təhrif edilməsi yolverilməzdir.** Ekspertin sözlərinə görə, bu gün müxtəlif istehsalçı şirkətlər şairlərin şeirlərini, filmlərimizdəki məşhur dialoqları özlərinə sərf edən şəkildə təhrif edirlər. Konkret olaraq Nəsimi irsinə əl uzatmağın mənfi hal olduğunu vurğulayan ədəbiyyatşünas hesab edir ki, böyük ilahi ruhla yazılan bir qəzəlin misrasının hansısa bir qida məhsulunun timsalında təhrif olunmasının qarşısı alınmalıdır. "2019-cu il ölkəmizdə cənab Prezident tərəfindən "Nəsimi ili" ?lan edilib və respublikamızın hər yerində, eləcə də türkdilli respublikalarda müxtəlif tədbirlər keçirilir. Belə bir vaxtda Nəsiminin məşhur qəzəlinin ilk misrasının təhrif edilməsi olduqca mənfi bir haldır. Nəsimi irsinə əl uzatmaq, onun peoziyasına bu şəkildə yanaşmaq pis göstəricidir. Müxtəlif şirkətlər öz məhsullarını satdırmaq üçün klassik irsimizin nümunələrini təhrif etməkdən çəkinmirlər. Fikrimcə, həmin məhsulun üzərindən "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" yığışdırılmalıdır. Şirkət məhsulunu başqa bir formada reklam etsin. Əlaqədar qurumlar, əqli mülkiyyətin müdafiəsi ilə məşğul olan təşkilatlar, eləcə də ədəbiyyatşünaslar və dilçilər bu məsələyə sərt yanaşmalıdırlar. Dahi Nəsiminin "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" qəzəlinin ilk misrasının təhrif edilməsi şairin ruhunun incidilməsidir" - deyə Q.Məhərrəmli qeyd etdi.

Əqli Mülkiyyət Agentliyi Nəsiminin qəzəlinin təhrif olunması məsələsinə münasibət bildirib. Agentlikdən verilən məlumata görə, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 14-cü maddəsinə əsasən, müəllifin şəxsi (qeyri-əmlak) hüquqları sırasında əsərinin mənasının dəyişilməsinə, təhrif olunmasına və ya hər hansı digər formada yenidən işlənməsinə, həmçinin, müəllifin şərəf və ləyaqətinə xələl gətirən hər hansı başqa hərəkətlərə qarşı çıxmaq hüququ (şöhrətinə hörmət edilməsi hüququ) var və Qanunun 25-ci maddəsinə əsasən, müəllifin şəxsi hüquqlarının qorunması müddətsizdir. "Görkəmli şair İmadəddin Nəsiminin "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" sözləri artıq sloqana çevrilmiş, nəinki ölkəmizdə, hətta ölkəmizdən kənarda da məşhur ifadə kimi istifadə olunur. "Vita 1000" meyvə şirələrinin qablaşdırıldığı qutuların üzərində "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" formasında yazılması məşhur kəlamın mənasının və təyinatının dəyişdirilməsi yolu ilə təhrif edilməsinə səbəb olub və bununla da müəllifin şərəf və ləyaqətinə xələl gətirilib.

Qanunun göstərilən normasına görə, əsərin mənasının dəyişdirilməsi və təhrif olunması, bununla da müəllifin şərəf və ləyaqətinə xələl gətirilməsi yolverilməzdir və şəxsi hüquqların pozulmasıdır. Bu cür hüquq pozuntusuna görə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq mülki, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur".

Agentlikdən bildirilir ki, qeyd edilən qanunun 28-ci maddəsinə uyğun olaraq, müəllifin şəxsi hüquqlarının qorunmasını müəllif vəfat edəndən sonra onun vərəsələri, yaxud vərəsələri yoxdursa və ya müəlliflik hüququnun qorunma müddəti qurtarıbsa, həmin hüquqların qorunmasını dövlət öz üzərinə götürür və dövlətin bu funksiyasını Əqli Mülkiyyət Agentliyi həyata keçirir. "Baş vermiş pozuntu halı barədə agentlik tərəfindən "AZ-GRANATA" MMC-yə istehsal etdiyi "Vita 1000" meyvə şirələrinin üzərindən "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" sözlərinin yığışdırılması ilə bağlı tədbirlərin görülməsi və nəticəsi barədə agentliyə məlumat verilməsi haqqında müvafiq xəbərdarlıq məktubu göndərilib və əks halda, müəllif-hüquq qanunvericiliyinə uyğun olaraq, müvafiq tədbirlərin görüləcəyi "AZ-GRANATA" MMC-nin rəhbərliyinin diqqətinə çatdırılıb.

Qeyd edək ki, "AZ-GRANATA" MMC-dən isə agentliyin məktubuna verilmiş cavabda "AZ-GRANATA" MMC 2018-ci ilin aprel ayından "Məndə sığar min vitamin, mən bu qutuya sığmazam" sloqanı altında etiket sifariş verməyib və həmin ifadə altında meyvə şirəsi istehsal etmir" - deyə bildirilib.

Qeyd edək ki, agentlik bir daha analoji halın təkrarlanmaması üçün "AZ-GRANATA" MMC-yə xəbərdarlıq edib.

***İradə SARIYEVA***

# İranla Azərbaycan birgə avtomobil istehsal edəcək



***Əli Əlirzayev:** "Azərbaycanla İranın birgə avtomobil və avtobus istehsal etməsi olduqca perspektivli sahədir"*

**Məlum olduğu kimi, Azərbaycan və İran birgə avtobus istehsal edəcək. Neftçalada fəaliyyət göstərən avtomobil zavodunda ehtiyat hissələrinin istehsalı ilə bağlı Azərbaycan və İran arasında razılıq əldə olunub.**

Bunu Azərbaycan-İran Hökumətlərarası Komissiyanın 13-cü iclasında çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazir qeyd edib ki, Azərbaycanla İran arasında, Hacıqabul Sənaye Məhəlləsində "Scania" markalı avtobuslar istehsal edəcək birgə müəssisənin yaradılmasına dair müqavilə imzalanıb.

Azərbaycan və İranın birgə istehsal etdiyi avtobusun ölkə iqtisadiyyatına əhəmiyyəti barəsində danışan iqtisadçı ekspert Əli Əlirzayev baki-xeber.com-a açıqlamasında qeyd etdi ki, Azərbaycanla İranın birgə avtomobil və avtobus istehsal etməsi olduqca perspektivli sahədir. Çünki həmin nəqliyyat vasitələrinə həm Azərbaycan, həm də İran bazarında böyük tələbat var: "Birgə avtobus istehsal olunması hər iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf etməsinə səbəb olacaq. Yeni iş yerləri açılacaq, əhalinin məşğulluğu təmin olunacaq".

İqtisadçı onu da vurğuladı ki, Azərbaycan və İranın birgə istehsal etdiyi avtomobillərin ixracı ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək.

***Günel CƏLİLOVA***

# Yanvar-fevral aylarında əhalinin gəlirləri 5 faiz artıb - prosesin səbəbləri...

**Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-fevral aylarında Azərbaycan əhalisinin gəlirləri ötən ilin eyni dövrünə nisbətən nominal ifadədə 5,1% artaraq 7619,7 mln. manata çatıb. Qeyd edək ki, bu da 2018-ci ilin analoji dövrünün göstəricisindən 5,1% çoxdur.**




*"Bu il ölkə iqtisadiyyatının inkişafı ilə bağlı proqnozlarımız yüksəkdir"*

İlin ilk iki ayında isə Azərbaycanda orta illik inflyasiya 1,9% təşkil edib. Bu isə o deməkdir ki, gəlirlər inflyasiyanı üstələyir.

Statistik məlumatlara görə, cari ilin yanvar-fevral aylarında əhalinin hər nəfərinə düşən nominal pul gəlirləri 4,2% - 772,2 manatadək artıb.

***Fikrət Yusifov:** "İqtisadiyyatın inkişafı istiqamətində görülən işlər əhalinin gəlirinə təsir edib"*

Bu dövrdə bütün vergilər ödənildikdən və digər icbari ödənişlər həyata keçirildikdən sonra əhalinin sərəncamında 6 mlrd. 952 mln. manat qalıb ki, bu da 2018-ci ilin yanvar-fevral aylarının göstəricisindən 5,2% çoxdur.

Məlumata görə, əhalinin hər nəfərinə düşən gəlir isə illik müqayisədə 4,2% artaraq 772,2 manat təşkil edib.

**Cari ilin ilk iki ayında əhalinin maddi gəlirinin artması barədə fikir bildirən iqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son zamanlar ölkə iqtisadiyyatında yaşanan artım əhalinin gəlirinə də təsir edib:** "Bu il ölkə iqtisadiyyatının inkişafı ilə bağlı proqnozlarımız yüksəkdir. Sevindirici haldır ki, tək yerli mütəxəssislər, təşkilatlar deyil, eyni zamanda, beynəlxalq agentliklər də 2019 və qarşıdakı illərdə ölkə iqtisadiyyatında və əhalinin gəlirində artımın olacağını öz hesabatlarında bəyan ediblər.

Nəzərə almaq lazımdır ki, ötən illər ərzində ölkə iqtisadiyyatının sürətli inkişafı üçün yaxşı bünövrə qoyulub. Məlumdur ki, Prezident İlham Əliyev iqtisadiyyatın inkişafı istiqamətində silsilə sərəncamlar imzalayıb. Bu sərəncamların icrası həm iqtisadiyyatın inkişafına, həm də əhalinin gəlirinə müsbət təsir edib".

Həmsöhbətimiz onu da vurğuladı ki, 2019-cu ilin ilk iki ayı ərzində büdcəyə proqnozlaşdırılandan artıq vəsait daxil olub. Hesablamalara görə, büdcəyə əlavə olaraq 105 milyon manat vəsait daxil olub: "Nəzərə almaq lazımdır ki, 2019-cu ilin büdcə xərci 2017-ci ilin büdcə xərcindən 8 milyard 200 min manat artıq nəzərdə tutulub. Bu isə 50 faizə qədər artım deməkdir. Artım iqtisadiyyatda baş verən pozitiv proseslər hesabına yaranır".

***Günel CƏLİLOVA***

# Əhali üçün qaz və işıq limiti ləğv oluna bilər

*"Hazırda ölkə iqtisadiyyatı imkan verir ki, qiymətdə differensial yanaşma aradan qaldırılsın"*



***Fuad İbrahimli:** "Əhalinin maddi durumunun yaxşılaşması üçün təbii qaz limiti ya ləğv olunmalı ya da aşağı salınmalıdır"*

**Milli Məclisin ötən iclasında deputatlar hökumətə əhali qrupu üzrə istehlak olunan təbii qazla bağlı limitə yenidən baxmağı təklif edib.**

Millət vəkili Musa Qasımlı Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyəti haqqında hesabatının müzakirəsi zamanı deyib ki, seçicilər qaza qoyulan limitin ləğvini istəyirlər. O, hökumətin bu məsələyə baxmasını istəyib.

**Deputat Fəzail Ağamalı da deyib ki, deputatlara təbii qazın istifadəsində Tarif Şurasının tətbiq etdiyi limitin azlığından çoxlu şikayətlər gəlir:** "Tarif Şurasından xahiş edərdim ki, bununla bağlı mümkün güzəştlər üzərində düşünsün. Bir çox ölkələrdə qaz istifadəsindəki qiymətlər gecə və gündüzdə fərqlidir və bu da ölkəmizdə tətbiq oluna bilər".

Qeyd edək ki, Tarif Şurasının 22 dekabr 2016-cı il tarixli qərarına uyğun olaraq 2017-ci il yanvar ayının 1-dən etibarən əhali qrupu üzrə istehlak olunan təbii qazın illik həcminin 1 700 kubmetr olan hissəsinin dəyəri 10 qəpiklə, 1 700 kubmetrdən artıq istifadə olunan hər kubmetr qazın dəyəri isə 20 qəpiklə hesablanır.

Təbii qaz limitinin ləğv olunması təkliflərini ekspertlər də dəstəkləyir.

İqtisadçı ekspert Fuad İbrahimli baki-xeber.com-a açıqlamasında qeyd etdi ki, hazırda ölkə iqtisadiyyatı imkan verir ki, qiymətdə differensial yanaşma aradan qaldırılsın. Məlumdur ki, təbii qazın illik vətəndaşlara istehlak həcmi 1700 kubmetr olan hissəsinin qiyməti 10 qəpik, limit keçdikdən sonra hər kubmetrə görə vətəndaşlara qazın dəyəri 20 qəpiklə hesablanır: "Yaxşı olar ki, vətəndaş 10 qəpiklik limiti keçəndən sonra qazın dəyəri 20 qəpiklə deyil, 15 qəpiklə hesablansın.

Bəllidir ki, son zamanlar ölkədə sosial layihələr həyata keçirilir. Güzəştlər tətbiq olunur, əhalinin sosial vəziyyətinin yaxşılaşması istiqamətində müəyyən işlər görülür. Əhalinin maddi durumunun yaxşılaşması üçün təbii qaz limiti ya ləğv olunmalı ya da aşağı salınmalıdır".

***Günel CƏLİLOVA***

# Saxta kriptovalyuta yaradaraq dələduzluq edən mütəşəkkil cinayətkar dəstənin üzvləri ələ keçdi

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları dələduzluq yolu ilə insanların etibarından sui-istifadə edən və bununla da zərərçəkənlərin külli miqdarda xarici valyutada olan pul vəsaitini mənimsəyən mütəşəkkil cinayətkar dəstənin üzvlərini yaxalayıb.**

Belə ki, Baş İdarənin Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının əməkdaşlarının iştirakı ilə keçirdiyi əməliyyat tədbiri nəticəsində bir qrup şəxsin investisiya şirkəti adı altında "şəbəkə biznesi" yaradaraq çoxsaylı vətəndaşları aldatdıqları müəyyən edilib.

Araşdırma zamanı müəyyən olunub ki, Bakı şəhər sakini Kənan Mustafazadə, Qırğızıstan Respublikasında anadan olan Rəfail Taştəmirov, Lənkəran rayon sakini Xəyal Yaxyayev, Gəncə şəhər sakini Müslüm İsmayılov, Qəbələ rayon sakini Araz Qasımov və qeyriləri 2018-ci ilin iyun ayında internet şəbəkəsində xüsusi lokal proqram yaradaraq, dövlət qeydiyyatına alınmayan və dövlət reyestrinə daxil edilməyən "İnvestsland" investisiya şirkəti adı altında özləri tərəfindən uydurulmuş "şəbəkə biznesi" yaradıblar. Onlar əslində mövcud olmayan "BeardyCoin" adlı kriptovalyutanın guya beynəlxalq valyuta bazarında satışını təşkil etdiklərini, mərkəzi ofislərinin Amerika Birləşmiş Ştatlarında yerləşdiyini bildirərək, özlərini həmin şirkətin Azərbaycan Respublikasındakı rəsmi nümayəndələri kimi təqdim edib, "investisiya paketi" adı ilə şişirdilmiş yüksək gəlirlər vəd etməklə vətəndaşların pul vəsaitlərini aldatma yolu ilə ələ keçiriblər.

Bu qayda ilə adıçəkilən şəxslər qurduqları "şəbəkə biznesi"nə piramida şəklində çoxsaylı vətəndaşları cəlb edərək onlara faktiki mövcud olmayan, uydurulmuş "BeardyCoin" adlı kriptovalyutanı 700.000 ABŞ dollarına satıblar. Araşdırma zamanı dəstə üzvlərinin "investisiya paketi" adı altında şişirdilmiş yüksək gəlirlər təklif edərək ümumilikdə 4000-ə yaxın vətəndaşı aldatdıqları müəyyən edilib. Əməliyyat tədbirlərinin davamı olaraq həmin şəxslərin paytaxtın Nəsimi rayonunda icarəyə götürdükləri ofisə baxış keçirilən zaman iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar aşkar edilərək götürülüb.

Faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.1 (Dələduzluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanıb, mütəşəkkil dəstənin 5 üzvü barədə həbs qətimkan tədbiri seçilib, istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Uşaqların övladlığa verilməsi qanununda hansı dəyişikliklər olacaq...

**Xəbər verildiyi kimi, övladlığagötürmə ilə bağlı yeni qaydalar hazırlanır. Bu sahədə idarəetmənin təkmilləşdirilməsi istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki işçi qrupu tərəfindən müvafiq işlər davam etdirilir.**



***Fatimə Hacıbəyli:*** *"Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi uşaq evlərində valideyn himayəsindən məhrum olmuş körpələrin sayının azalmasına səbəb olacaq"*

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:*** *"Layihədə övladlığa götürülmüş uşaqların iradə və mənafelərinin üstün tutulması..."*

Nazirliyin yaydığı məlumatda qeyd olunur ki, görülən işlər çərçivəsində "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi Qaydaları"nın layihəsi hazırlanır.

Layihədə valideyn himayəsindən məhrum olmuş uşaqların ailə tərbiyəsinə (övladlığa, qəyyumluğa, himayəyə və ya himayədar və ya qrup ailəyə) verilməsi, bu imkanlar olmadıqda isə, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş təhsil, tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə yerləşdirilməsi məqsədilə vahid elektron uçotun aparılması qaydaları əksini tapacaq.

Müvafiq kateqoriyaya aid uşaqların övladlığa götürülməsi, övladlığa götürülmüş uşaqların saxlanması, tərbiyəsi və təhsili şəraitinə vahid nəzarət həyata keçiriləcək. Ona görə də layihədə bu sahədə nəzarət həyata keçirilməsi, eyni zamanda, uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun aparılması, valideynləri tərəfindən tərk edilmiş, lakin övladlığa götürülməsinə yol verilməyən uşaqların himayədar və ya qrup ailələrdə yerləşdirilməsi ilə bağlı qaydalara da geniş yer verilir.

Övladlığa uşaq götürmə ilə bağlı hazırlanan yeni layihədə nə kimi dəyişikliklərin olacağını araşdırdıq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Bakı-Xəbər"ə verilən məlumata görə, layihənin hazırlanmasında övladlığa götürülmüş uşaqların iradə və mənafelərinin üstün tutulması, onların yeni ailələrdə layiqli yaşayış tərzinə malik olmaları, bu istiqamətdə nəzarətin gücləndirilməsi, həmçinin, övladlığagötürmə prosesində şəffaflığın və sadə prosedurun təmin edilməsi əsas prinsiplər kimi diqqətdə saxlanır.

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, övladlığa uşaq verilməsi olduqca həssas məsələdir:** "Məlumdur ki, övladlığa uşaq götürmə ilə bağlı müəyyən problemlər yaşanırdı. Uşaq götürmək istəyənlər övlad sahibi olmaq üçün çoxlu sayda instansiyadan keçməli idilər. Yeni hazırlanacaq layihədə övladlığa uşaq vermə qaydaları sadələşdiriləcək. Əvvəlki kimi, insanlar daha çox sənəd toplamayacaqlar. Gələcəkdə uşaqlar övladlığa verilən zaman ailələrin psixoloji, maddi vəziyyətinə daha çox üstünlük veriləcək".

Həmsöhbətimiz hesab edir ki, övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi uşaq evlərində valideyn himayəsindən məhrum olmuş körpələrin sayının azalmasına səbəb olacaq. Yeni hazırlanacaq layihənin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanması müsbət qərardır: "Bəllidir ki, əvvəllər uşaqların övladlığa verilməsi müəyyən qurumlar tərəfindən həyata keçirilirdi. İndiyədək 3 yaşa qədər uşaqların övladlığa götürülməsi ilə bağlı qərarı Səhiyyə, daha böyük yaş kateqoriyasında isə Təhsil Nazirliyi, əcnəbilərə isə Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi verirdi. Bir növ, bu sahədə pərakəndəlik yaşanırdı. Bundan sonra övladlığagötürmə və valideynlikdən məhrum olunma ilə bağlı bütün qərarlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub".

***Günel CƏLİLOVA***

# Uşaqlara tütün və spirt satışı qaydaları sərtləşdirilir



***Fatimə Hacıbəyli:*** *"Yetkinlik yaşına çatmayan şəxslərdən tütün məmulatları alan zaman sənəd tələb olunması siqaret çəkənlərin sayına təsir göstərəcək"*

**"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib. Qeyd edək ki, sənədi Baş nazir Novruz Məmmədov imzalayb.**

Dəyişikliyə görə, tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə, satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edəcək.

Yetkinlik yaşına çatmayan şəxslərdən tütün məmulatları alan zaman sənəd tələb olunmasını ekspertlər də təqdir edir.

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində qeyd etdi ki, qanuna əsasən 18 yaşına çatan şəxslərə siqaretin satışı qadağan olunub:** "Belə bir qadağanın tətbiq olunması yaxşı haldır. Ancaq bir sıra məqamlar var ki, onun necə həyata keçiriləcəyi sual doğurur. Bəllidir ki, heç bir market və köşklərdə azyaşlılardan yaşını müəyyən etmək üçün sənəd tələb olunmur. 5 yaşında biri ilə 18 yaşında birini təyin etmək asan məsələdir. Amma 15-16 yaşlarında olan yeniyetmələrin 18 yaşının tamam olmadığını təyin etmək çətin məsələdir. Qanunvericiliyin sərtləşdirilməsi və daha doğrusu aydınlaşdırılması müsbət nəticə verəcək və siqaret çəkənlərin sayına təsir göstərəcək. Bu, bütün dünya ölkələrində də belədir.

Məsələn, Avropada siqaret satılan xüsusi elektron köşklər var ki, hətta həmin elektron köşklərdə belə sənəd tələb olunur. Bu vaxtında atılan addımdır və öz müsbət təsirini göstərəcək. Dəyişiklik azyaşlıların siqarətə olan meylliliyini və siqaretin əlçatımlığının azalması baxımından çox əhəmiyyətli bir addımdır".

***Günel CƏLİLOVA***

# Gömrükçülərimiz İrandan 21 milyonluq narkotikin Azərbaycana keçirilməsinin qarşısını aldı

**Gömrükçülərin həyata keçirdiyi daha bir uğurlu əməliyyat nəticəsində 306 kiloqram 710 qram narkotik vasitəheroin aşkar edilib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə bildirildiyinə görə, Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan əməliyyat məlumatı əsasında Biləsuvar gömrük postunda İran İslam Respublikasının "Nader Morvarıd Astara" şirkəti tərəfindən Azərbaycan ərazisindən tranzit keçməklə Gürcüstanın "Marıana Younes Saeı Dızajyekan" şirkətinə göndərilən "daş bloklar" yükü daşıyan yük avtomobilləri saxlanaraq stasionar rentgen qurğusundan keçirilib.

Yoxlama zaman avtomobillərin qoşqularında olan "Daş bloklar" yükünün təsvirlərində şübhəli cizgilər müşahidə edilib.

İİR vətəndaşı Azızıkoshkı Majid Hassanın idarə etdiyi "SCANIA" markalı yük avtomobilindəki paletlərdən birinə gömrük baxışı zamanı 28 ədəd daş blokun hər birinin daxilində 1 ədəd olmaqla şəffaf rəngli polietilen torbalarda qablaşdırılan, ümumi çəkisi 45 kq 446 qram narkotik vasitə-heroin aşkar edilib. Bundan sonra həmin avtomobildəki digər daş bloklarda da narkotik vasitələrin olub-olmadığını təkrar yoxlamaq məqsədilə yük avtomobili idxal xəttinə yönləndirilib. Yoxlama yerinə çatarkən sürücü Azızıkoshkı Majid Hassan qəfildən idarə etdiyi nəqliyyat vasitəsinin sürətini artıraraq İran istiqamətinə hərəkət etməyə başlayıb.

Gömrük əməkdaşları bunun qarşısını almağa səy göstərsələr də, sürücü yük avtomobili ilə İran istiqamətindəki çıxış xəttində olan "şlaqbaumu" sındıraraq Azərbaycan Respublikasının ərazisini tərk edib. Qanunsuz şəkildə, müvafiq sənədlər olmadan dövlət sərhədini keçən sürücü İran İslam Respublikasının Biləsuvar gömrük postunun nəzarət zonasının girişində yük avtomobilini darvazanın kandarına çırparaq dayanıb və nəqliyyat vasitəsindən düşüb qaçaraq İran ərazisinə daxil olub.

Bundan sonra nəzarətdə olan İran islam Respublikasının digər vətəndaşı İmanı Rouhollah Alıakbarın idarə etdiyi "VOLVO" markalı yük avtomobilinin qoşqusunda olan 15 paletdəki 960 ədəd daş blok rentgen qurğusundan keçirilərək yoxlanıb. Yoxlama zamanı 161 ədəd standart ölçülü, düzbucaqlı formalı daş blokların hər birinin içərisində 1 ədəd olmaqla şəffaf rəngli polietilen torbalarda qablaşdırılmaları ilə birlikdə ümumi çəkisi 261 kq 264 qram təşkil edən narkotik vasitə - heroin aşkar edilib.

Beləliklə, iki yük avtomobilindən aşkar edilən narkotik vasitə - heroinin ümumi çəkisi 306 kq 710 qramdır.

Qeyd edək ki, aşkar olunan 306 kq 710 qram heroinin "qara bazar"da dəyəri 21 milyon 500 min manat təşkil edir.

Faktla bağlı araşdırma aparılır.

№ 52 (3950) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

19 MART 2019-cu il

www.baki-xeber.com

## Elan

Ülviyyə Cavayevaya Qaradağ rayonundakı 228 nömrəli məktəb tərəfindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Zunud kənd sakini Gülməmmədov Rüstəm Lətif oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0096 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Daşbulaq kənd sakini Abbasov Qəzənfər Rza oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0068 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Aşağı Şabalıd kənd sakini Salahova Mayiz Məhərrəm qızının adına verilmiş 404013072885 saylı reyestrdən çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Əliyeva Nuranə Tofiq qızına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Həsənova Humay İlyas qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Aydın Şamoy oğlunun adına 006759 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Feyzullayeva Firuzə Əziz qızının adına, Şamaxı rayonu, Hacıqədirli kəndində yerləşən torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-024 A kod 41004038) itdiyi üçün etibarsız sayılır.

Hüseynov Seman Telman oğluna Kürdəmir Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet (SX - 0158130) itdiyi üçün etibarsız sayılır.

Heydərova Səidə Sərxan qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Gözəlzadə Şəhla Əkrəm qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"İNTERNATİONAL BUSİNESS SOLUTİONS" MMC-yə məxsus (VÖEN N-3101382291) möhür itdiyi üçün etibarsız sayılır.

Kərimov Sadiq Rasim oğlunun adına, Bakı şəhəri, Binəqədi qəsəbəsi, 2-ci mədən, korpus 64, ev 19 "a" ünvanının qeydiyyat vəsiqəsi (seriya FM N-006888) itdiyi üçün etibarsız sayılır.

## "Azercell"dən rəqəmsallığa doğru daha bir addım

*Yeni "Kabinetim" xidməti ilə nömrənizə onlayn nəzarət edin*

**Hər zaman müştəri xidmətləri sahəsində innovativ ideya və həll yolları ilə seçilən "Azercell" şirkəti abunəçilərinin istifadəsinə daha müasir dizayna malik olan "Kabinetim" şəxsi kabinet xidmətini təqdim edir.**




"Kabinetim" nömrə ilə bağlı əksər əməliyyatın şəxsən abunəçi tərəfindən vaxta qənaət edərək ən qısa zamanda icra edilməsini təmin edən Virtual Köməkçidir.

Beləliklə, "Kabinetim" aşağıdakı əməliyyatların "Azercell" Müştəri Xidmətləri və ya Telefon Mərkəzinə müraciət etmədən onlayn icra edilməsi üçün imkan yaradır:

- nömrənin balansı və internet balansı haqqında tam məlumat əldə edilməsi
- mobil internet paketlərinin və rominq internet paketlərinin sifarişi, yenilənməsi və deaktiv edilməsi
- nömrədə mövcud tarif paketin dəyişdirilməsi
- nömrənin xəttinin idarə edilməsi
- nömrənin balansına son 6 ay ərzində edilən ödənişlərin izlənilməsi.

Əlavə olaraq "Kabinetim" vasitəsilə abunəçi nömrənin balansını artıra bilər, sms göndərə bilər, "Azercell"dən və 3-cü şirkətlərdən daxil olan sms yayımını dayandıra bilər, "Xidmətlərim" bölümünə daxil olmaqla isə "Azercell"in Rominq, Kəscell, Zənglərin Yönləndirilməsi, Gizlətcell, Simurq xidmətləri üzərindən müxtəlif əməliyyatları icra edə bilər və sair.

Qeyd edək ki, rəqəmsal dünyanın ən son yeniliklərini tətbiq etməyi hədəfləyən "Azercell" yeni şəxsi kabineti adaptiv ("responsive") dizaynda təqdim edir. Kabinet ekranın ölçüsünə görə həssas dizayna malikdir və istifadədə olan cihazın xüsusiyyətlərinə uyğun olaraq ekran və brauzer ölçüsünə avtomatik uyğunlaşır.

"Kabinetim"in daha bir yeni xüsusiyyəti "Sürətli giriş"in, yəni birdəfəlik şifrə ilə kabinetə daxilolmanın mümkün olmasıdır.

"Kabinetim" tətbiqini Android və İOS istifadəçiləri aşağıdakı linkdə göstərilən təlimata əsasən öz smartfonlarına ələ edib, istənilən zaman digər mobil applikasiyalar kimi istifadə edə bilərlər: https://www.azercell.com/az/personal/services/selfservice/kabinetim/

İnanırıq ki, bir sıra əməliyyatların onlayn şəkildə icra edilməsi üçün imkan yaradan"Kabinetim" xidməti abunəçilərin gündəlik həyatlarını asanlaşdırmaqda faydalı olacaq.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Rəqibləri zəif saymayın, problemlərinizin, gerçəkdən də, mürəkkəb olduğunu etiraf edin. Belə olarsa, çox problemlərin öhdəsindən gələ bilərsiniz. Nikbinlik və qüvvələrinizə əminlik imkanlarınızı artıracaq.



**Buğa** - Mənasız işləri, oyun təsiri bağışlayan əməliyyataları dərhal tərk edin. Strateji önəm daşımayan situasiyada adi fiqura çevrilməyin. Qarşınıza qoyduğunuz məqsədə doğru inamla, qətiyyətlə irəliləyin.



**Əkizlər** - Fəaliyyətinizə kənar müdaxilələrə aqressiv yox, düşünülmüş reaksiya verin. Məqsədləri dəyişmək olar. Effekti az olacaq işi dayandıraraq indiyədək öhdəsindən gələ bilmədiyiniz məsələni həll edin.



**Xərçəng** - Risk və eksperimentlər nə qədər az olarsa, işlər bir o qədər yaxşı alınacaq. Peşə fəaliyyəti müstəvisində problemlər, işdə anlaşılmazlıqlar ola bilər. Başqalarının səhvləri və yanlışlıqlarına görə narahat olacaqsınız.



**Şir** - Hadisələrin ritmi yavaşıyacaq. Özünüzü nigaran, narahat hiss edəcəksiniz. Sakit çalışın, proseslərə süni müdaxilə etməyin. Bədbinliyə qapılmayın - problemləri həll edə biləcəksiniz.



**Qız** - Detallara xüsusi diqqət tələb edən gündür. Retroqrad insanların dediyi ilə oturub-durmayın. Nəyisə yeniləmək, dəyişmək, sistemləşdirmək lazımdır. Fəaliyyət prosesini daha məntiqli şəkildə formalaşdırın.



**Tərəzi** - Yaxın ətrafınızdakı insanlarla münasibətlərdə sərinlik yaratmayın. Qarşılıqlı anlaşılmazlıqlar sonradan narazılıq və münaqişəyə çevrilə bilər. Təmasların ənənəvi, adət etdiyiniz modeli sizdə nigaranlıq hissi yaratmamalıdır.



**Əqrəb** - Günün ilk yarısında hadisələrin ritmi sakit, emosional durum isə stabil deyil. Çalışdığınız yerdəki problemlər yaxınlarınızla münasibətlərinizə mənfi təsir etməməlidir.



**Oxatan** - Xoş xatirələrinizin olduğu yerlərə qayıtmaq istəyəcəksiniz. Hisslərinizə əsir düşməyin. Çoxsaylı ideyalar və təklifləri tələskən qiymətləndirməyin. Aldığınız informasiyaları təhlil edin.



**Oğlaq** - Maddi perspektivlərinizi dürüst qiymətləndirin. Sərfəli olmayan, qeyri-effektiv işlərdən imtina edin. Çoxlu vaxt və qüvvə tələb edən, amma sonucu qənaətbəxş olmayan layihələr mənasızdır.



**Dolça** - Günün ilk yarısında mühüm işlərdən birini başa vura bilərsiniz. Başladığınız işlə bağlı narazılıq yeni işlərə start verməyə səbəb olmamalıdır. Yeniliklər və dəyişikliklər istəyi artacaq.



**Balıqlar** - Önəmli saydığınız sahədə əhəmiyyətli uğurlar vəd edən əlverişli gündür. Seçdiyiniz yoldan sapmayın: bu yol sizi məqsədə aparır. Yaxın ətrafınızdakı insanlar sizi günün ikinci yarısında dəstəkləyəcəklər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Nar" nömrə ilə xaricdə "WhatsApp" pulsuzdur

**"Nar"Novruz bayramı ilə əlaqədar xaricə səyahət edəcək abunəçiləri üçün sərfəli rominq paketləri təqdim etməkdədir.**

Mobil operatorun istifadəçiləri "Nar" rominq ilə internet, "WhatsApp" vasitəsilə pulsuz yazışma və səsli zəng əldə edirlər. Bütün abunəçilərini nəzərə olan "Nar" 4 müxtəlif rominq paketi təqdim edir. "Roaming 9" paketi 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. "Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" vasitəsilə yazılı mesajlar pulsuzdur. "Roaming 9", "Roaming 15" paketlərinin istifadə müddəti 5, "Roaming 18" və "Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.

Qeyd edək ki, "Nar"ın təqdim etdiyi rominq paketlərinin sərfəli olması istifadəçilərin sayını artırmaqdadır. Son 1 il ərzində "Nar"ın rominq istifadəçilərinin sayı 174% artıb.

Rominq paketləri haqqında daha ətraflı məlumatı nar.az saytından və ya 777 nömrəsinə "R" göndərməklə əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.




*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 5200

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.